QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 016 (6216) 28 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# İlham Əliyev: Biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!

*Prezident İlham Əliyev Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*



Bax 2

## "Azərbaycan işğala son qoymaqla regionda yeni reallıqlar, əməkdaşlıq imkanları yaratdı"



Bax 4

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Türkiyənin Siyasət, İqtisadiyyat və Toplum Araşdırmaları Vəqfinin (SETA) birgə təşkilatçılığı ilə "Azərbaycan-Türkiyə münasibətlərinin gələcək AZƏRTAC xəbər verir ki, tədbirin moderatoru BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycanın zəfər qazanmış bir ölkə olaraq, işğaldan azad edilmiş ərazilərinin bərpasına və müvafiq regional layihələrin icrasına başladığını bildirib...

## ŞOK: Koronavirusu bir dəqiqədə öldürən sprey hazırlandı!



Bax 12

Türk elm adamları bir dəqiqə ərzində koronavirusu öldürən bir sprey hazırlayıblar. SİA xəbər verir ki, bu barədə "Daily Sabah" qəzeti məlumat dərc edib. Məlumatda qeyd olunur ki, Türkiyənin Bursa şəhərindəki "Uludağ Universiteti"nin Mikrobiologiya Bölümü əməkdaşları, koronavirusu bir dəqiqə içində...

## Min bir dərdin dərmanı - çay niyə zay olub?

Bax 15





## Ermənistan silahlı qüvvələrinin minaladığı ərazilər Dövlət Sərhəd Xidmətinin mühəndis-istehkam bölmələri tərəfindən təmizlənilir

Bax 6

## Ermənistanda kukla rejimi formalaşır?

Bax 11

Paşinyanın son təyinatlarına diqqət çəkən erməni mətbuatı bütün bunları baş nazirin Ermənistanda dövlət idarəetmə sistemini gücləndirməyə deyil, sadəcə olaraq, öz hakimiyyətini gücləndirməyə hesablandığını yazır.SİA həmin mənbəyə ...



## Xocavənddən bizə baxan cəllad Njde: biz nə etməliyik?

Qəbul olunmuş üçtərəfli bəyanatdakı müddəalara və razılaşmalara baxmayaraq, Qarabağda - Rusiya sülhməramlılarının nəzarət etdikləri ərazilərimizdə erməni özbaşınalıqları davam edir.



Bax 10

## Vüqar Rəhimzadə: Azərbaycan İKT sahəsində daha böyük uğurlara imza atacaq



Bax 6

## Əli Kərimli mənfurluğu: şəhid faktorunu siyasi alətə çevirən vicdansızlıq!



Bax 14

## İbrahimoviclə Lukaku kəllə-kəlləyə!



Bax 16

# İlham Əliyev: Biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!

## *Prezident İlham Əliyev Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib.***

Prezident İlham Əliyevin çıxışı

- Mən sizi Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu məsuliyyəti dərk edəcəksiniz və öz işinizlə qarşınızda duran vəzifələrin icrasına çalışıb onları yerinə yetirəcəksiniz. Azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi institutu mənim təşəbbüsümlə yanvarın 19-da yaradılmışdır. Birinci təyinat məhz Şuşa rayonuna olan təyinatdır. Bu da təbiidir. Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır. Necə ki, bütün dövrlərdə Şuşa həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb və qəbul edib.

**“Şuşanın bərpası daim mənim nəzarətimdə olacaq və yaxın zamanlarda Şuşa öz tarixi simasını bərpa edəcək”**

**“Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir”**

Şuşanın işğal altına düşməsi böyük faciə idi. Hər bir şəhərin, hər bir kəndin, rayonun işğal altına düşməsi böyük faciə idi. Amma Şuşanın işğal altında düşməsi bizim üçün bəlkə də ən ağrılı itkimiz olmuşdur. Təkcə ona görə yox ki, Şuşanın strateji yerləşməsi imkan verirdi ki, bütün bölgəyə, - əgər orada işlər düzgün qurulsaydı, - nəzarət edək, imkan verirdi ki, Şuşanı müdafiə etmək üçün hətta az qüvvələrlə bütün lazımi tədbirləri görək. Şuşanın itirilməsi xalqımız üçün böyük sarsıntı yaratmışdır, mənəvi sarsıntı yaratmışdır və biz 28 il Şuşasız yaşamışıq. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Biz Şuşaya qayıtmışıq və noyabrın 8-də bu müjdəni Azərbaycan xalqına verərək demişdim ki, Şuşa, sən azadsan! Biz öz tariximizə qayıtmışıq. Əlbəttə ki, Şuşanı bərpa edəcəyik, Şuşanı dirçəldəcəyik və dirçəlmə prosesi artıq başlamışdır.

Ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmişlər. Baxmayaraq ki, 28 il ərzində buna çalışmışdılar, bir çox xarici qonaqları qanunsuz olaraq Şuşaya gətirmişdilər, Şuşa haqqında uydurmalar ortaya atmışdılar, Şuşanın adını dəyişdirmişdilər. Amma buna baxmayaraq, heç kim buna inanmırdı. Çünki Şuşaya gələn hər bir insanın fikri ondan ibarət idi və hər bir insan öz gözü ilə görürdü ki, Şuşanın memarlıq ansamblı Azərbaycan memarlıq məktəbini təcəssüm etdirir. İndi qədim tarixi saxtalaşdırırlar, indi saxta kitablar yazdırırlar, simpoziumlar, tədbirlər keçirirlər. Amma bu, nisbətən yaxın tarixdir. Şuşanı quran, Şuşa şəhərini salan bizim əcdadımız Pənahəli xan olmuşdur. Məhz onun fəaliyyəti, səyləri nəticəsində Şuşa şəhəri salınıbdır. Ondan əvvəl Pənahəli xan Bayat qalasını, Şahbulaq qalasını salmışdır. Təsadüfi deyil ki, bu şəhərə verilən birinci ad Pənahabad idi, öz adını vermişdir. Ondan sonra isə Şuşanın təmiz havasını, şüşə kimi havasını nəzərə alaraq bu şəhərə Şüşə, yəni, Şuşa adı verilmişdir.

Bu dərəcədə saxtakarlıq ola bilərmi?! Məlumdur ki, işğal dövrünə qədər Şuşa şəhərində daim azərbaycanlılar yaşamışlar. Burada erməni əhalisi demək olar ki, yox idi. Hətta 1920-ci illərdə bizim torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanın əhalisinin əksəriyyəti azərbaycanlılar olmuşdur və işğal dövründə əhalinin 98 faizi azərbaycanlılar idi.

Şuşa bizim tarixi şəhərimizdir və biz bu şəhərə qayıtmışıq. Əgər ermənilər bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün 28 il ərzində bir daşı daş üstə qoymayıblar? Nə üçün Şuşanın tarixi abidələrini qoruyub saxlaya bilməyiblər? Bütün bulaqlar quruyub. Hər bir məhəllədə bulaq olub, birində də su yoxdur. Yaxşı, əgər bu, sənin şəhərindirsə, niyə sən bulaqları qurudursan? Bütün tarixi abidələr yerlə-yeksan edilib. Əgər bu, sənin şəhərindirsə, niyə sən bu abidələri dağıtmısan? Əgər sən Ermənistan olaraq bəyan edirdin ki, Şuşanı azad etdiniz, kimdən azad etdiniz? Dinc əhalidən azad etdiniz? Azərbaycanlılardan azad etdiniz? Yaxşı, əgər hesab edirdiniz ki, siz bunu azad etmisiniz, niyə binaları dağıdırsınız? Əgər bu, erməni şəhəridirsə, nə üçün yerlə-yeksan edirsiniz? Orada təkcə bizim məscidlərimiz yox, bütün binalar dağıdılıb. Sovet vaxtında tikilmiş “Xruşovka”lar deyilən binalar, - hansı ki, Şuşanın memarlıq ansamblını kobudcasına pozur, - qalmışdı, orada da məskunlaşmışdılar. Mən Şuşada olarkən bu dağıntıları öz gözümlə görmüşəm. Elə bil ki, oradan vəhşi qəbilə keçib, vandallar Şuşanı bu günə salıblar. Sonra da deyirlər ki, Şuşa erməni şəhəridir. Bu, növbəti erməni yalanıdır, saxtakarlığıdır! Onların bütün tarixi saxtakarlıq və mifologiya üzərində qurulub. Onlar və onların müxtəlif ölkələrdəki havadarları onlar üçün saxta tarix yaradıblar və bu saxtakarlıq bu gün də davam edir. Baxın, görün erməni nümayəndələri və onların xaricdəki havadarları Şuşanın azad olunması ilə bağlı nələr deyirlər? Guya Şuşa bizə elə-belə verilib, döyüşlər getməyib, ermənilər Şuşanı tərk ediblər. Ağ yalandır! Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib. O, Daşaltı istiqamətindən, digər istiqamətlərdən, sıldırım qayalardan qalxaraq, işğalçıları məhv edərək Şuşanı azad edib, demək olar ki, əliyalın, əlində süngü, bıçaq, yüngül silah topa, tanka qarşı vuruşub.

Ardı Səh. 3

## Rəsmi xronika

Prezident İlham Əliyev Aydın Zöhrab oğlu Kərimovun Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 20 noyabr tarixli 26 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# İlham Əliyev: Biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!

## *Prezident İlham Əliyev Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

Əvvəli-Səh-2

Şuşa əməliyyatında yüzlərlə işğalçı məhv edilib, onların sayını biz bilirik. Ermənistan rəhbərliyi bunu nə qədər öz xalqından gizlətsə də, gizlədə bilməyəcək. Şuşanı müdafiə edən yüzlərlə işğalçını Azərbaycanın qəhrəman övladları məhv edib. Necə demək olar ki, Şuşa bizə bağışlanılıb? İkincisi, belə bir şəhəri kimsə kiməsə bağışlaya bilər? Biz Şuşanı qəhrəman övladların rəşadəti, qanı, canı bahasına düşmənlərin əlindən, əsarətindən almışıq. Bundan sonra Şuşada əbədi yaşayacağıq, Şuşanı qoruyacağıq və qoruyuruq.

Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Bu faciənin günahkarları AXC-Müsavat cütlüyüdür. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, o vaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdi, Şuşanı faktiki olaraq düşmənə təhvil verdi. O vaxt Azərbaycan müdafiə naziri AXC-Müsavat cütlüyünün törəməsi idi, onların quyruqlarından idi. Şuşanı satan birinci o olmuşdur. Sonra da demişdi ki, mənim günahım yoxdur. Necə sənin günahın yoxdur, satqın, xain. Demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Bu günə qədər də bu gülləni çaxmayıb öz satqın başına. AXC-Müsavat cütlüyü öz çirkin niyyətlərinə çatıb. Şuşa və ondan bir neçə gün sonra Laçın rayonunun işğal altına düşməsi nəticəsində o vaxtkı hakimiyyət kənarlaşdırılıb və hərbi çevriliş nəticəsində AXC-Müsavat hakimiyyətə gəlib. Ondan sonra Şuşanı unudub, Şuşanı faktiki olaraq ermənilərə bağışlayıb və sonra digər xəyanət törədib - 1993-cü ilin aprel ayında Kəlbəcəri düşmənə təhvil verib. Günahsız, əliyalın insanları orada tək qoyub, xilas edə bilməyib, qoruya bilməyib. Ondan sonra da nə edib?! Fərarilik edib, qaçıb. Ali Baş Komandan fərari, dövlət katibi fərari, parlamentin sədri fərari, digər fərarilər qaçıb gizləndilər, biri Kələkidə, biri xaricdə. Əgər müharibə dövründə Ali Baş Komandan qaçırsa, bunun adı fəraridir, başqa adı yoxdur. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır.

Mən demişəm, bir daha demək istəyirəm ki, tariximizin həqiqətə uyğun olması ilə bağlı bizim alimlər, bizim mütəxəssislər gərək dolğun məlumat versinlər, tariximizi malalamasınlar. Bizə saxta tarix lazım deyil. Sovet dövründə nə qədər saxta tarixlə üzləşmişdik. Bizim qəhrəmanlarımız düşmən kimi göstərilirdi. Xalqımızın düşmənləri, qaniçənlər qəhrəman kimi göstərilirdi. 26 Bakı komissarı - o erməni bolşevik quldur dəstəsi qəhrəman kimi göstərilirdi. Ancaq onlara qarşı vuruşan milli vətənpərvər insanlar düşmən kimi göstərilirdi. Biz bunu görmüşük. Bizim nəsil bunu görüb, saxta tarix nədir. İndi yenə kimsə saxta tarix yaratmaq istəyir. Yenə kimsə hansısa fərarinin, satqının, qorxağın günahlarını yumaq istəyir. Biz buna imkan verə bilmərik. Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir.

Şuşanın qorunması ilə bağlı müvafiq göstərişlər verilib. Azərbaycan hərbçiləri Şuşanı qoruyurlar, ətraf yüksəklikləri nəzarətdə saxlayırlar və saxlayacaqlar. Şuşada komendantlıq yaradılıb və indi isə mülki idarəetmə institutu yaradılır. Bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir. Çünki Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir. Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz. Mən artıq bir müddət bundan əvvəl Şuşaya mütəxəssislərdən ibarət böyük bir qrup ezam etmişdim. Onların arasında siz də var idiniz və vəziyyətlə tanış oldunuz. Bu qrup bir neçə gün Şuşada qalıb, bütün təftiş, təhlil işlərini aparıb və mənə məruzə edib. Şuşanın bərpası bunun əsasında aparılacaqdır.

Eyni zamanda, biz, əlbəttə ki, Şuşanın bərpadan sonrakı həyatını da geniş müzakirə edəcəyik. Mən artıq Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etmişəm. Bərpadan sonra Şuşada həyat qaynamalıdır. İnsanlar qayıdandan sonra Şuşanın çox zəngin mədəni həyatı olmalıdır. Həm ölkə daxilindəki tədbirlər, eyni zamanda, bir çox beynəlxalq tədbirlər - festivallar, müsabiqələr, qastrollar orada keçirilməlidir. Yəni, Şuşa nəinki Azərbaycanın, əminəm ki, bölgənin mədəniyyət paytaxtı adına layiq olacaqdır.

Təsadüfi deyil ki, bu yaxınlarda qəbul etdiyim iki nümayəndə heyətinin başçısı Şuşaya xüsusi diqqəti dilə gətirib. ICESCO-nun Baş katibi mənimlə görüş zamanı bildirdi ki, onlar təklif edəcəklər ki, Şuşa İslam mədəniyyətinin paytaxtı elan edilsin. Bu, bizi çox məmnun edən bir addımdır. Onu da bildirməliyəm ki, bu günə qədər Azərbaycanın iki şəhəri bu şərəfli ada layiq görülmüşdür - Bakı şəhəri və Naxçıvan şəhəri. Mən xatırlayıram, ICESCO belə qərarı qəbul edəndə bir neçə il əvvəl qərar verilir, ondan bir neçə il sonra artıq o şəhər bu şərəfli ada layiq görülür. Növbə də var, sıra da var. Ona görə belə bir bəyanatın Bakıda səslənməsi xüsusi məmnunluq doğurur. Eyni zamanda, bu yaxınlarda Türk Şurasının nümayəndə heyəti ilə görüş əsnasında Türk Şurasının Baş katibi də belə bir təklif irəli sürdü ki, Şuşa Türk dünyasının mədəniyyət paytaxtı seçilsin. Baxın, bu tarixi şəhərimizə türk dünyasında və bütövlükdə müsəlman dünyasında nə qədər böyük maraq var, nə qədər böyük məhəbbət var. Bu, təsadüfi deyil. Ona görə biz, əlbəttə ki, Şuşanın gələcək həyatı ilə bağlı öz addımlarımızı atacağıq. Artıq mən bildirmişəm ki, bu il iki tədbir keçirilməlidir. “Xarı bülbül” festivalı, Vaqif poeziya günləri bərpa edilməlidir. Vaqifin məqbərəsinin bərpası ilə bağlı işlərə start verilməlidir və çalışmalıyıq ki, məqbərə bu il bərpa edilsin. Vaqif poeziya günləri məqbərənin önündə keçiriləcəkdir.

Təbii ki, düşmən Şuşanı talan edib, viran qoyub, dağıdıb. Şuşada olarkən, bu acı mənzərəni seyr edərkən adamın ürəyi ağrıyır. Amma biz bütün infrastruktur layihələrini icra edərək Şuşanı tez bir zamanda bərpa edəcəyik. Bildiyiniz kimi, Şuşaya gediş-gəlişin təşkil edilməsi üçün mənim Sərəncamımla yol çəkilir. Füzuli hava limanı inşa edilir və bu ilin sonuna qədər istifadəyə verilməlidir. Ondan sonra beynəlxalq uçuşlar təşkil edilməlidir. Şuşa ilə bağlı indidən müxtəlif ölkələrdə təqdimatlar və sərgilər keçirilməlidir. Siz Azərbaycan Dövlət Turizm Agentliyi və Mədəniyyət Nazirliyi ilə birlikdə bu proqramı işləyin. Dünyanın müxtəlif ölkələrində Şuşanın tarixi, işğal dövrü, bugünkü bərpa işləri ilə bağlı təqdimatı keçirilməlidir. Həm Azərbaycan ictimaiyyəti, eyni zamanda, beynəlxalq ictimaiyyət bərpa işlərimizin gedişi ilə bağlı məlumatlandırılmalıdır.

İnfrastruktur layihələrinə gəldikdə, Şuşa infrastruktur baxımından demək olar ki, tamamilə geridə qalmış bir şəhərdir. Düşmən orada bir daşı daş üstə qoymayıb, bir bina tikməyib. Özləri üçün bir neçə villa tikdirib. Villanın biri o xunta başçısına, biri isə deyilənə görə, Ermənistan rəhbərliyində təmsil olunan zəngin, rüşvətxor məmura məxsusdur. Mənfur düşmən 28 il ərzində orada ondan başqa bir dənə də bina tikməyib. Yollar bərbad, binalar dağılmış, hər tərəf xozanlıq, zirzibil, çirkin köşklər. Olan-qalanı da dağıdıblar. Bir daşı daş üstə qoymayıblar, ancaq istismar ediblər. Bundan sonra gəlib deyirlər ki, Şuşa erməni şəhəridir, onun adını da dəyişdirməyə cəhd ediblər. Ona görə infrastruktur layihələrinin icrası, əlbəttə ki, birinci məsələdir. Bununla paralel olaraq şəhərsalma işləri düzgün aparılmalıdır. Siz bu təyinata qədər Dövlət Şəhərsalma və Arxitektura Komitəsində işləmisiniz, təcrübəniz var və əminəm ki, bu işlərə rəhbərlik edəcəksiniz.

Tarixi, dini abidələrimizin bərpası ilə bağlı konkret proqram işlənilir. Müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu məsələyə fəal qoşulubdur, eyni zamanda, Mədəniyyət Nazirliyi, digər aidiyyəti qurumlar. Yaşayış fondu təftiş edilib. Yaşayış fondunun böyük hissəsi yararsız vəziyyətdədir. İşğal dövründə Şuşada təqribən maksimum 2-3 min adam yaşayırdı. Ermənilər nə qədər çalışsalar da, Şuşanı məskunlaşdıra bilməmişdilər. Halbuki xaricdən gətirilmiş erməniləri orada yerləşdirməklə hərbi cinayət törətmişlər. Bütün bu aksiyalar təbliğat xarakteri daşıyırdı. Orada yaşayanların böyük hissəsi hərbçilər və onların köməkçiləri idi. Yaşayış fondunun təftişi mütləq daha müfəssəl aparılmalıdır, - birinci təftiş aparıldı, - əlbəttə ki, ondan sonra bərpa işləri aparılacaqdır.

Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik. Mən bu sözü vermişəm və bu sözümü də icra edəcəyəm. Necə ki, əvvəlki dövrlərdə demişdim biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və vermədik. Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı. Demişdim ki, Şuşasız qələbəmiz yarımçıq olacaq və o vaxt müharibə dövründə bundan artığını deyə bilmirdim. Çünki müharibənin aparılmasının məxfiliyi gözlənilməli idi. Müharibənin ilk günlərindən biz bilirdik ki, hədəfimiz nədir və Şuşaya doğru uğurla irəliləyirdik. Əgər müharibənin gedişatına hər bir mütəxəssis nəzər salsa, görər ki, bizim strateji hədəfimiz nə idi. Biz Ermənistan tərəfindən qurulmuş istehkamları yararaq cənub istiqamətindən işğal edilmiş torpaqlara daxil olduq, onları azad etdik və müxtəlif istiqamətlər üzrə əks-hücuma keçdik. Bunun nəticəsində Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd rayonlarının bir hissəsini, Murovdağ yüksəkliyini, Kəlbəcər rayonunun bir hissəsini, Zəngilan, Qubadlı, Laçın rayonlarının cənub hissəsini və Şuşa şəhərini azad etdik. Hədəfimiz Qarabağın tacı olan Şuşa idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı. Ondan sonra düşmən diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Biz Kəlbəcər, Laçın, Ağdam rayonlarını bir güllə atmadan geri götürdük. Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu. Şuşanın azad olunması günü Zəfər günü elan edildi.

Bu müharibə bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərdi və bir daha göstərdi ki, nəyi demişəmsə, onu da etmişəm. Təsadüfən demirdim ki, mən bilirəm nəyi, necə, nə vaxt etmək lazımdır. Azərbaycan xalqına kiçik də olsa, siqnal verirdim ki, hər şey yaxşı olacaq. İstədiyimizə nail olacağıq, sadəcə olaraq, hər şeyin vaxtı var. Müharibə dövründə, sadəcə olaraq, bir dəfə Şuşa haqqında demişdim, o da müxbir soruşdu ki, bəs Şuşa nə vaxt alınacaq? Əlbəttə ki, bunu biz deyə bilməzdik, dedim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Ancaq heç şübhə etmirdim ki, biz əziz, doğma Şuşamızı erməni əsirliyindən xilas edəcəyik, Azərbaycan bayrağını qaldıracağıq. O vaxt demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq. Bu gün isə deyirəm ki, biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!

Bir daha demək istəyirəm ki, sizin üzərinizə çox böyük məsuliyyət düşür. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və Şuşanın dirçəldilməsi işində öz fəal rolunuzu oynayacaqsınız. Yəqin onu da bilirsiniz və şübhə etmirsiniz ki, Şuşanın bərpası daim mənim nəzarətimdə olacaq və yaxın zamanlarda Şuşa yenə də öz tarixi simasını bərpa edəcəkdir. Sizə uğurlar arzulayıram.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov:

- Möhtərəm cənab Prezident, mənə bu etimadı göstərdiyinizə görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizin rəhbərliyinizlə müzəffər Ordumuzun şücaəti nəticəsində Şuşa şəhəri işğaldan azad olunandan sonra etdiyiniz tarixi çıxışınızda “Şuşa, biz səni dirçəldəcəyik!” şüarını səsləndirmisiniz. Bu şüar altında quruculuq işlərində iştirak etmək mənim üçün böyük şərəf və eyni zamanda, böyük məsuliyyətdir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan mədəniyyətinin paytaxtı olan Şuşanın planlı və sistemli şəkildə yenidən qurulması, olduqca zəngin tarixi, mədəni irsinin bərpa edilməsi, sakinlərin rahat və əlçatan müasir məxsusi şəhər mühitində yaşamaları üçün qarşımda qoyduğunuz vəzifələrin, bütün tapşırıqlarınızın vaxtında və tələb etdiyiniz səviyyədə yerinə yetirilməsi üçün əlimdən gələni edəcəyəm. Bir daha təşəkkür edirəm, cənab Prezident.

**“Bu müharibə bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərdi və bir daha göstərdi ki, nəyi demişəmsə, onu da etmişəm. Təsadüfən demirdim ki, mən bilirəm nəyi, necə, nə vaxt etmək lazımdır”**

# “Azərbaycan işğala son qoymaqla regionda yeni reallıqlar, əməkdaşlıq imkanları yaratdı”

## *“Azərbaycan-Türkiyə münasibətlərinin gələcək 10 ili” adlı vebinar keçirilib*






***Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Türkiyənin Siyasət, İqtisadiyyat və Toplum Araşdırmaları Vəqfinin (SETA) birgə təşkilatçılığı ilə “Azərbaycan-Türkiyə münasibətlərinin gələcək 10 ili” adlı vebinar keçirilib.***

AZƏRTAC xəbər verir ki, tədbirin moderatoru BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycanın zəfər qazanmış bir ölkə olaraq, işğaldan azad edilmiş ərazilərinin bərpasına və müvafiq regional layihələrin icrasına başladığını bildirib. Fərid Şəfiyev bu zəfərin əldə olunmasında Türkiyənin müstəsna rolunu qeyd edərək deyib ki, Türkiyə ilə Azərbaycan 30 il ərzində davamlı olaraq hərbi təlimlər keçirib və qələbə təkcə pilotsuz uçuş aparatları hesabına qazanılmayıb: “Türkiyə-Azərbaycan birliyi heç bir ölkəyə qarşı yönəlmir, öz müstəqilliyimizin təminatına xidmət edir”. BMTM-in İdarə Heyətinin sədri onu da əlavə edib ki, iki ölkə həm də elmi sahədə birgə potensialı gücləndirməlidir. O, həmçinin İslam dünyası çərçivəsində iş birliyinin vacibliyini diqqətə çatdırıb.

Daha sonra çıxış edən Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Türkiyə-Azərbaycan əlaqələrinin təməlində xalqlarımızın qardaşlıq münasibətləri, ortaq mədəniyyətimiz dayanır. Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin əbədi olacağını söyləyən Hikmət Hacıyev deyib: “Əminəm ki, qarşıdan gələn onillik və yüzilliklərdə də əməkdaşlığımız davam edəcək və münasibətlərimiz daha da möhkəmlənəcək. Azərbaycan Prezidenti İlham Əliyevin də hər zaman qeyd etdiyi kimi, dünyada bir-birinə tarixi köklərlə, mədəni irsi ilə bağlı olan bir çox başqa dövlətlər də var, lakin onların arasındakı əlaqələr Azərbaycan-Türkiyə münasibətləri qədər nümunəvi deyil. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən həyata keçirilən siyasət qardaş ölkələrimiz arasındakı münasibətləri nümunəvi səviyyəyə çatdırıb”.

Prezidentin köməkçisi qeyd edib ki, qarşımızda dayanan əsas vəzifə xalqlarımızın iradəsindən irəli gələn bu əməkdaşlığın bütün sahələrdə inkişafını təmin etməkdən ibarətdir. 2018-ci ildə Bakının azad olunmasının 100 illiyi münasibətilə hər iki ölkənin prezidentlərinin iştirakı ilə keçirilən hərbi paradın çox böyük rəmzi mənası var idi. Belə ki, 100 il əvvəl Qafqaz İslam Ordusunun sıralarında türk əsgər və zabitləri qardaş Azərbaycana köməyə gəldilər və ölkəmizdə erməni daşnakları tərəfindən törədilən qırğınlara son qoyuldu, Bakı azad edildi. 100 il sonra keçirilən hərbi parad da qardaş ölkələrimizin müdafiə və təhlükəsizlik baxımından da sıx əməkdaşlığının təcəssümü idi.

Hikmət Hacıyev ötən ilin iyul ayında Tovuz döyüşləri və xalqımızın Vətən müharibəsi zamanı qardaş Türkiyənin Azərbaycana verdiyi siyasi-mənəvi dəstəkdən bəhs edərək deyib: “Xüsusilə xalqımızın Vətən müharibəsi müddətində qardaş Türkiyənin mənəvi, psixoloji, siyasi, diplomatik dəstəyi çox önəmli amillərdən idi. Həmçinin qardaş Türkiyə vətəndaşlarının xalqımıza verdiyi dəstək bizi daha da qürurlandırırdı”.

Prezident İlham Əliyevin köməkçisi qeyd edib ki, bu gün beynəlxalq münasibətlərdə hər hansı sistemli yanaşma mövcud deyil, beynəlxalq hüququn aliliyi qorunmur. Azərbaycan öz şəxsi təcrübəsində də bunu görüb. Beynəlxalq sülhə və təhlükəsizliyə cavabdeh qurumların fəaliyyətləri səmərə vermir. Azərbaycan işğala son qoymaqla regionda yeni reallıqlar, əməkdaşlıq imkanları yaratdı. Bu xüsusda Azərbaycan və Türkiyənin üzərinə də yeni vəzifələr düşür.

Azərbaycan-Türkiyə əməkdaşlığının regionun və Avropanın enerji mənzərəsinin dəyişdirilməsindəki rolundan bəhs edən Hikmət Hacıyev deyib: “Hesab edirəm ki, Türkiyə regionumuzda davamlı sülhün əldə olunmasında da önəmli rola malikdir. Bu xüsusda Prezident İlham Əliyevin təşəbbüskarı olduğu 3+3 formatını qeyd etmək istərdim. Bu, dövlətlər arasındakı əməkdaşlığı, inteqrasiyanı nəzərdə tutan ideyadır. Əgər Ermənistan Azərbaycana və qardaş Türkiyəyə qarşı ərazi iddialarından əl çəkərsə, onlar da bu prosesin tərkib hissəsi ola bilər”.

Vebinarda çıxış edən SETA-nın baş koordinatoru, Türkiyə Respublikası Prezident Administrasiyası, Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Burhanəddin Duran təmsil etdiyi qurum tərəfindən Qarabağa aid kitabın hazırlanması üzərində iş getdiyini bildirib. O, iki ölkə arasında tarixi və mədəni əlaqələrin gücündən danışaraq bu münasibətlərin Azərbaycanın əldə etdiyi zəfərlə yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb. Burhanəddin Duran qeyd edib ki, “qarayaxma” kampaniyasına baxmayaraq, Türkiyə Vətən müharibəsi zamanı daim Azərbaycanın arxasında olduğunu göstərib.

Sonra çıxış edən SETA-nın xarici siyasət direktoru, Ankara Sosial Elmlər Universitetinin müəllimi Muhiddin Ataman Türkiyənin təkcə müharibə zamanı deyil, ondan əvvəl və postkonflikt dövründə də Azərbaycanın yanında olduğunu diqqətə çatdırıb. O, bu dəstəyin bütün müsəlman ölkələri tərəfindən ifadə edilməsinin vacibliyini qeyd edib.

Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin sədri Araz Aslanlı çıxışında iki ölkənin həyata keçirdiyi regional layihələrdən danışıb və bildirib ki, Trans-Xəzər əməkdaşlığı Azərbaycan-Türkiyə əlaqələrini daha da gücləndirəcək potensiala malikdir.

SETA Təhlükəsizlik Koordinatorluğunun təmsilçisi, Uludağ Universitetinin müəllimi Fərhad Pirinççi qeyd edib ki, Türkiyə-Azərbaycan əlaqələrinin gələcəyi yalnız Qafqaz və ya Qarabağla bağlı olmamalıdır. Bu əlaqələr bütün geosiyasi reallıqlar nəzərə alınaraq daha geniş sahəni əhatə etməlidir.

BMTM-in şöbə müdiri Cavid Vəliyev regional üçtərəfli platformaların vacibliyindən danışaraq deyib ki, Azərbaycan və Türkiyənin iştirakı ilə həyata keçirilən layihələr bütün tərəflərin maraqlarına uyğundur və altı ölkənin əməkdaşlığı şəklində davam edə bilər.

Yaxın Şərq Texniki Universitetinin (ODTÜ) müəllimi Oqtay Tanrısevər Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə əhalinin qayıdışı məsələsinə toxunaraq bildirib ki, bu bölgədə həyatın qayıtması üçün Türkiyənin inşaat sektorunun təcrübəsindən də istifadə etmək mümkündür. Altı ölkənin regional əməkdaşlıq platformasının real olmasını göstərmək üçün çevik işlər görülməlidir. Vebinar sual-cavab sessiyası ilə davam edib.

## Vladimir Putin: “Bu gün hamıya qarşı müharibə mümkündür”




“Pandemiya qlobal iqtisadiyyat və siyasətdə formalaşmağa başlayan struktur dəyişikliklərini sürətləndirib”. SİA rus mətbuatına istinadən xəbər verir ki, bu fikirləri Rusiya prezidenti Vladimir Putin “Davos Gündəmi” tədbirində çıxışı zamanı bildirib.

Dünyanın siyasət və iqtisadiyyatında artan ziddiyyətlərin risklərinə diqqət çəkən rusiyalı pezident bəşəriyyət üçün ciddi bir çağırışa çevrilən koronavirus pandemiyasının struktur dəyişikliklərinə təkan verdiyini və hətta onu sürətləndirdiyini də bildirib: “Pandemiya dünyada yığılmış problem və balanssızlığı daha da artırıb”-deyən rus prezident, ictimai fikirlərin qütbləşməsini və dünyadakı daxili siyasi proseslərin kəskinləşməsini də qeyd edib. Dünyadakı ziddiyyətlərin artıq sarmallaşmağa doğru getdiyini bildirən Putin, cəmiyyəti bölmək problemini, onu bir küncə sıxışdırma ümidini təhlükəli bir illüziya adlandırıb.

## Polşa mediası Azərbaycanın haqlı mövqeyindən yazdı




Polşanın “Gazeta Olsztynska” qəzetində Polşa Azərbaycanlıları Şurasının üzvü Emin Hüseynovun müsahibəsi dərc olunub. SİA-nın xəbərinə görə, peşəkar idmançısı, hazırda Polşada yaşayan və “LKS Niedzwiedz Ketrzyn” boks klubunun rəhbəri, ixtisasca iqtisadçı menecer olan soydaşımız müsahibəsində Dağlıq Qarabağ münaqişəsinin tarixi, Azərbaycanın bu münaqişədə haqlı və ədalətli mövqeyi, Xocalı soyqırımı, dövlətimizin və xalqımızın əzəli torpaqlarımızı Ermənistanın işğalından qurtarmaq və ərazi bütövlüyümüzü bərpa etmək naminə 30 il mübarizə aparması, Azərbaycan Prezidenti İlham Əliyevin BMT baş katibi Antonio Quterreşi və dünya birliyini Ermənistan hərbi-siyasi rəhbərliyinin ölkəmizə qarşı hazırladığı hərbi təxribatlar barədə öncədən xəbərdar etməsi, Ermənistan silahlı qüvvələrinin Azərbaycana hücum etməsi, 44 günlük Vətən müharibəsi zamanı tarixi Qələbənin əldə edilməsi barədə ətraflı məlumat verib.

Müsahibədə Azərbaycan və Polşa arasında tarixi dostluq əlaqələrinə, qarşılıqlı münasibətlərə də diqqət cəlb edilib.

# Müasir yol infrastrukturu iqtisadi inkişaf üçün mühüm amildir

*Prezident İlham Əliyev: "Bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir"*

***Qələbə ili olan 2020-ci ili yola salaraq bu gün 2021-ci ilə daha böyük nailiyyətlər əldə etmək üçün ilk gündən yenə də xalq-iqtidar birliyi ilə qarşıda duran vəzifələrin inkişafına başlanılıb. Məhz milli birliyimiz və dövlətimizin başçısının bu birlikdən güc alan müstəqil siyasəti qlobal maliyyə-iqtisadi böhranın ölkəmizə təsirini aradan qaldırmağa, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etməyə imkan verir.***

Ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən, sürətlə yeniləşən və müasirləşən avtomobil-yol təsərrüfatı da müstəqil dövlətçiliyimizin çox mühüm nailiyyətlərindəndir. Bu sahədə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı son on yeddi ildə möhtərəm Prezidentimiz İlham Əliyev uğurla davam etdirərək, dövrün tələblərinə, zamanın çağırışlarına uyğun olaraq daha da zənginləşdirib.

Prezident İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən çıxış edərək bildirib ki, bu sahəyə daima böyük diqqət göstərilir ki, bu gün reallıqlar göz önündədir: "Rəhbərlik edəcəyiniz sahələrə mən daim böyük diqqət göstərmişəm, bu gün də göstərirəm. Son illərdə bu sahələr uğurla inkişaf edib. Mən Prezident vəzifəsinə seçiləndə həm nəqliyyatda, həm də rabitə sahəsində vəziyyət bizi qane etmirdi. O vaxt yüksək texnologiyalardan, ümumiyyətlə, söhbət getmirdi, yollar bərbad vəziyyətdə idi, dəmir yolları infrastrukturu köhnəlmişdi, dəniz nəqliyyatı sahəsində hər hansı bir irəliləyiş yox idi, əksinə, bizim donanmamız böyük dərəcədə köhnəlmişdi. Bütövlükdə bu sahədə vəziyyət ürəkaçan deyildi. Görülmüş tədbirlər nəticəsində bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir. Son 17 il ərzində 17 min kilometrdən çox avtomobil yolu tikilib. Çünki yol olmayan yerdə inkişaf da olmur. Yol olmayan yerdə fermer öz məhsulunu bazara çatdıra bilmir. Dəmir yolları olmayan yerdə heç bir tranzit imkanından söhbət gedə bilməz. Ona görə biz, ilk növbədə, ölkə daxilində infrastrukturu tamamilə yenidən qurduq. Eyni zamanda, ölkəmiz üçün çox vacib olan və uzunmüddətli inkişaf strategiyamıza uyğun olan tranzit imkanları da yaratmışıq. Son 17 il ərzində 17 min kilometrdən çox avtomobil yolu tikilib, həm magistral yollar, həm kənd yolları, həm də şəhərlərarası yollar. Bu proses bu gün də davam etdirilir. Eyni zamanda, azad edilmiş torpaqlarda da yol infrastrukturunun yaradılmasına bu il start verilmişdir. Biz bu işləri planlı şəkildə görəcəyik. Füzulidən Şuşa şəhərinə açılmış yeni yol onu göstərir ki, biz bu işləri faktiki olaraq ən qısa müddət ərzində görə bilirik".





"Yaxın zamanlarda Şuşa yenə də öz tarixi simasını bərpa edəcək"

"Bu müharibə bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərdi və bir daha göstərdi ki, nəyi demişəmsə, onu da etmişəm. Təsadüfən demirdim ki, mən bilirəm nəyi, necə, nə vaxt etmək lazımdır. Azərbaycan xalqına kiçik də olsa, siqnal verirdim ki, hər şey yaxşı olacaq. İstədiyimizə nail olacağıq, sadəcə olaraq, hər şeyin vaxtı var. Müharibə dövründə, sadəcə olaraq, bir dəfə Şuşa haqqında demişdim, o da müxbir soruşdu ki, bəs Şuşa nə vaxt alınacaq? Əlbəttə ki, bunu biz deyə bilməzdik, dedim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq". Bunu Prezident İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib. Dövlət başçısı onu da öir daha bildirib ki, Şuşa yenə də əvvəlki simasına qayıdacaq: "Ancaq heç şübhə etmirdim ki, biz əziz, doğma Şuşamızı erməni əsirliyindən xilas edəcəyik, Azərbaycan bayrağını qaldıracağıq. O vaxt demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq. Bu gün isə deyirəm ki, biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!".

"Bir daha demək istəyirəm ki, sizin üzərinizə çox böyük məsuliyyət düşür. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və Şuşanın dirçəldilməsi işində öz fəal rolunuzu oynayacaqsınız. Yəqin onu da bilirsiniz və şübhə etmirsiniz ki, Şuşanın bərpası daim mənim nəzarətimdə olacaq və yaxın zamanlarda Şuşa yenə də öz tarixi simasını bərpa edəcəkdir", - deyə Prezident İlham Əliyev qeyd edib.



"Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirəcəyik"

Prezident İlham Əliyev qeyd edib ki, Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik: "Mən bu sözü vermişəm və bu sözümü də icra edəcəyəm. Necə ki, əvvəlki dövrlərdə demişdim biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və vermədik. Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı. Demişdim ki, Şuşasız qələbəmiz yarımçıq olacaq və o vaxt müharibə dövründə bundan artığını deyə bilmirdim". Prezident bildirib ki, çünki müharibənin aparılmasının məxfiliyi gözlənilməli idi: "Müharibənin ilk günlərindən biz bilirdik ki, hədəfimiz nədir və Şuşaya doğru uğurla irəliləyirdik. Əgər müharibənin gedişatına hər bir mütəxəssis nəzər salsa, görər ki, bizim strateji hədəfimiz nə idi. Biz Ermənistan tərəfindən qurulmuş istehkamları yararaq cənub istiqamətindən işğal edilmiş torpaqlara daxil olduq, onları azad etdik və müxtəlif istiqamətlər üzrə əks-hücuma keçdik. Bunun nəticəsində Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd rayonlarının bir hissəsini, Murovdağ yüksəkliyini, Kəlbəcər rayonunun bir hissəsini, Zəngilan, Qubadlı, Laçın rayonlarının cənub hissəsini və Şuşa şəhərini azad etdik. Hədəfimiz Qarabağın tacı olan Şuşa idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı. Ondan sonra düşmən diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Biz Kəlbəcər, Laçın, Ağdam rayonlarını bir güllə atmadan geri götürdük. Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu. Şuşanın azad olunması günü Zəfər günü elan edildi".

"Düşmən Şuşada daşı daş üstə qoymayıb, bir bina tikməyib"

"Şuşa infrastruktur baxımından demək olar ki, tamamilə geridə qalmış bir şəhərdir", - deyən Prezident İlham Əliyev bildirib ki, düşmən orada bir daşı daş üstə qoymayıb, bir bina tikməyib: "Özləri üçün bir neçə villa tikdirib. Villanın biri o xunta başçısına, biri isə deyilənə görə, Ermənistan rəhbərliyində təmsil olunan zəngin, rüşvətxor məmura məxsusdur. Mənfur düşmən 28 il ərzində orada ondan başqa bir dənə də bina tikməyib. Yollar bərbad, binalar dağılmış, hər tərəf xozanlıq, zir-zibil, çirkin köşklər. Olan-qalanı da dağıdıblar. Bir daşı daş üstə qoymayıblar, ancaq istismar ediblər. Bundan sonra gəlib deyirlər ki, Şuşa erməni şəhəridir, onun adını da dəyişdirməyə cəhd ediblər. Ona görə infrastruktur layihələrinin icrası, əlbəttə ki, birinci məsələdir. Bununla paralel olaraq şəhərsalma işləri düzgün aparılmalıdır. Siz bu təyinata qədər Dövlət Şəhərsalma və Arxitektura Komitəsində işləmisiniz, təcrübəniz var və əminəm ki, bu işlərə rəhbərlik edəcəksiniz.

Tarixi, dini abidələrimizin bərpası ilə bağlı konkret proqram işlənilir. Müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu məsələyə fəal qoşulubdur, eyni zamanda, Mədəniyyət Nazirliyi, digər aidiyyəti qurumlar. Yaşayış fondu təftiş edilib. Yaşayış fondunun böyük hissəsi yararsız vəziyyətdədir. İşğal dövründə Şuşada təqribən maksimum 2-3 min adam yaşayırdı. Ermənilər nə qədər çalışsalar da, Şuşanı məskunlaşdıra bilməmişdilər. Halbuki xaricdən gətirilmiş erməniləri orada yerləşdirməklə hərbi cinayət törətmişlər. Bütün bu aksiyalar təbliğat xarakteri daşıyırdı. Orada yaşayanların böyük hissəsi hərbçilər və onların köməkçiləri idi. Yaşayış fondunun təftişi mütləq daha müfəssəl aparılmalıdır, - birinci təftiş aparıldı, - əlbəttə ki, ondan sonra bərpa işləri aparılacaqdır".

"Qarşıya düzgün hədəflər qoyulmuşdur, kadr təminatı düzgün seçilmişdir və Prezident tərəfindən bu sahəyə daim diqqət göstərilib"

"Gələcək vəzifələrə gəldikdə, əlbəttə ki, bu müsbət dinamika saxlanmalıdır. Eyni zamanda, heç kimə sirr deyil ki, dünyada texnologiyalar çox sürətlə inkişaf edir və biz addımlarımızı bu inkişafa uyğun şəkildə atmalıyıq. Əlbəttə, Azərbaycanda texnologiyaların inkişafı sahəsində daha böyük addımlar atılmalıdır. Xüsusilə gəncləri bu işlərə biz daha geniş miqyasda cəlb etməliyik", - deyən dövlət başçısı bildirib ki, biz elə bir şərait yaratmalıyıq ki, istedadlı gənclərimiz Azərbaycanda fəaliyyət göstərsinlər, öz biliklərini burada tam realizə edə bilsinlər və ölkə iqtisadiyyatına, ölkəmizin güclənməsinə xidmət etsinlər: "Ona görə yeni texnologiyaların Azərbaycanda tətbiqi prioritet məsələlərdən biridir. Burada, ilk növbədə, əlbəttə ki, dünyada artıq üzə çıxan ən müasir texnologiyaların Azərbaycanda tətbiqindən söhbət gedir. Bunu biz mütləq etməliyik. Ən müasir texnologiyalar Azərbaycanda bütün sahələrdə tətbiq edilməlidir. Eyni zamanda, istedadlı insanların fəaliyyəti daha düzgün təşkil edilməlidir ki, Azərbaycan texnologiyaların istehsalçısı kimi də öz rolunu oynasın və öz sözünü desin. Məsələn, nə üçün biz, ictimai xidmətlər sahəsində texnologiyaları icad edən və ixrac edən ölkəyə çevrilə bilmişik? Çünki qarşıya düzgün hədəflər qoyulmuşdur, kadr təminatı düzgün seçilmişdir və Prezident tərəfindən bu sahəyə daim diqqət göstərilib. Ancaq bu diqqət bütün qurumlar tərəfindən göstərilməlidir. Çünki mənim tərəfimdən verilən tapşırıq bəzi hallarda müəyyən müddət ərzində icra edilir, ondan sonra icra edilmir, ya da ki, unudulur, yaxud da hansısa başqa xoşagəlməz hallar meydana çıxır. Ona görə dövlət qurumları, nazirliklər, dövlət şirkətləri mənim göstərişlərimi axıra qədər icra etməlidirlər və belə olan halda heç bir yerdə axsama olmayacaq".

**RƏFİQƏ KAMALQIZI**

# Mədəniyyət naziri Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi ilə görüşüb




Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov yanvarın 26-da Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lömuan ilə görüşüb. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Fransa arasında mədəniyyət sahəsində əməkdaşlıq, bu əlaqələrin perspektivi, həmçinin 2020-ci ilin Vətən müharibəsi və Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunmasından sonra yaranmış vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Anar Kərimov Fransa və Azərbaycan arasında mədəni əlaqələrin mövcud vəziyyəti, iki ölkə mədəniyyətinin qarşılıqlı təbliği ilə bağlı reallaşdırılan tədbirlər, o cümlədən ölkəmizin Fransada həyata keçirdiyi layihələr barədə məlumat verib.

Vətən müharibəsi və müzəffər Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunan ərazilərdə tarixi abidələrin və mədəni infrastrukturun vəziyyəti barədə söz açan nazir qeyd edib ki, Ermənistan 30 ilə yaxın işğal altında saxladığı ərazilərdə Azərbaycanın mədəni irsinə qarşı talan və "təmizləmə" həyata keçirib. Bu ərazilərdə mədəniyyətlə bağlı bütün infrastruktur, eləcə də qəbiristanlıqlar, məscidlər, xristian abidələri və digər məkanlar erməni işğalçı qüvvələri tərəfindən məqsədli şəkildə dağıdılıb.

Dövlət katibi Jan Batist Lömuan qəbula görə təşəkkürünü bildirərək hazırkı səfərin məqsədinin Azərbaycan tərəfi ilə fikir mübadiləsi aparmaq, qarşılıqlı əlaqələrin inkişafı üçün zəmin yaratmaq olduğunu deyib. Qonaq eyni zamanda Azərbaycanın işğaldan azad olunan ərazilərinə UNESCO missiyasının gəlməsi ilə bağlı məsələyə toxunub.

Anar Kərimov bu məsələyə dair hazırda danışıqların davam etdiyini bildirərək, müstəqil ekspertlərdən ibarət UNESCO missiyasının, təşkilatın 1954-cü il Haaqa Konvensiyasına və digər BMT sənədlərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmət çərçivəsində, beynəlxalq hüquqda mədəni mülkiyyət hesab olunan bütün müəssisə və abidələri əhatə etməsi ilə bağlı Azərbaycan tərəfinin mövqeyini diqqətə çatdırıb. Həmçinin, missiyanın həyata keçirilməsi üçün təhlükəsizlik baxımından ərazinin ilk öncə minalardan təmizlənməsi və iqlim şəraitinin nəzərə alınmasının vacibliyini qeyd edib.

Nazir eyni zamanda Fransa cəmiyyətində, eləcə də UNESCO tərəfindən bu məsələ ilə bağlı daha çox xristian abidələrinə dair fikirlərin səsləndirilməsinin və həmin ərazilərdə dağıdılmış İslam irsi barədə hər hansı mövqeyin ifadə olunmamasının Azərbaycanda təəssüflə qarşılandığını vurğulayıb. Qeyd olunub ki, dini-etnik mənsubiyyətindən və xarakterindən asılı olmayaraq, işğaldan azad olunan ərazilərdəki və ümumilikdə ölkəmizdəki bütün inanc yerlərinin, abidələrin qorunması dövlət siyasəti səviyyəsində həyata keçirilir.

# Ermənistan silahlı qüvvələrinin minaladığı ərazilər Dövlət Sərhəd Xidmətinin mühəndis-istehkam bölmələri tərəfindən təmizlənilir



Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbə sayəsində dövlətimizin ərazi bütövlüyü təmin edildikdən, o cümlədən ölkəmizin İran İslam Respublikası ilə dövlət sərhədi işğaldan azad olunduqdan sonra bu ərazilərdə zəruri sərhəd mühafizə infrastrukturunun bərpası tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin İran İslam Respublikası ilə dövlət sərhəd xətti boyunca minaladığı ərazilər DSX-nin mühəndis-istehkam bölmələri tərəfindən hazırda minalardan təmizlənir. Son günlər Cəbrayıl rayonunun Həsənli kəndi yaxınlığında tank əleyhinə 80 mina sərhədçi istehkamçılar tərəfindən zərərsizləşdirilib.

# Vüqar Rəhimzadə: Azərbaycan İKT sahəsində daha böyük uğurlara imza atacaq



"Dövr dəyişir, qarşıya yeni vəzifələr qoyulur. Bu vəzifələr özlüyündə təkmilləşməni bir zərurətə çevirir. Bir mühüm məqamı da qeyd edək ki, hələ 2003-cü ildə cənab İlham Əliyev ilk dəfə Prezident seçilərkən andiçmə mərasimində iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoymuş, inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salaraq əsas hərəkətverici qüvvənin təhsil, elm, texnologiyalar, innovasiyalar olduğunu önə çəkərək "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürmüşdü. Son 17 ildə Azərbaycanda təhsilin, elmin, yeni texnologiyaların inkişafı, onların arasında vəhdətliyin yaradılması istiqamətində atılan addımlara diqqət yetirsək, irəli sürülən bu tezisin reallıqda öz əksini tapdığını görərik. Məhz ölkə iqtisadiyyatının elmi əsaslara söykənməsinin nəticəsidir ki, Azərbaycan 2008-ci ildə başlanan, hətta inkişaf etmiş ölkələr üçün belə ciddi problemlər yaradan iqtisadi və maliyyə böhranından az itki ilə çıxmaqla yanaşı, son bir ildən artıq dövrdə dünyanı cənginə almış COVID-19-la mübarizə dövründə də reallaşdırdığı uğurlu iqtisadi islahatlar, sosial dəstək proqramları ilə diqqətdədir". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Azərbaycanda davamlı inkişafa yol açan əsas amillərdən biri məhz yeni texnologiyaların inkişafı və tətbiqidir: "İnformasiya-kommunikasiya texnologiyaları (İKT) son illərdə sürətlə inkişaf edərək iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilmiş, ölkənin iqtisadi, sosial və mədəni inkişafına, dövlət idarəçiliyinin təkmilləşdirilməsinə və bütövlükdə ictimai həyatın demokratikləşməsinə mühüm töhfələr vermişdir. Bu gün ölkə əhalisinin 85 faizindən çoxu internet istifadəçisidir. Bu göstəricilərə görə Azərbaycan MDB və Mərkəzi Asiyada liderdir. Azərbaycanda internet mediasının inkişafı və müasir texnologiyalardan istifadə geniş vüsət alır. İKT sahəsində əlverişli biznes, investisiya mühiti mövcuddur və həyata keçirilən iqtisadi islahatlar sayəsində özəl sektorun fəaliyyəti ildən-ilə genişlənməkdədir. Bunun nəticəsidir ki, bir çox maliyyə qurumlarının, xüsusilə Azərbaycanı ən islahatçı ölkə kimi dəyərləndirən Dünya Bankının, həmçinin Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında Azərbaycan bu sahədə də liderliyini qoruyur. Dövlətimizin başçısı İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bu məsələyə diqqəti yönəldərək bildirmişdir ki, Azərbaycan rabitə və yüksək texnologiyalar sahəsində bölgədə mərkəzi rol oynayır. Təsadüfi deyil ki, artıq dünya miqyasında böyük nüfuz qazanmış "Bakutel" sərgisi ənənəvi olaraq Bakıda keçirilir".

Baş redaktor bildirib ki, Azərbaycan kosmik klubun üzvüdür. 2013-cü il "İKT İli"ndə ilk telekommunikasiya peyki, "Azərspace-1" orbitə buraxılıb: "2016-cı ildə "Azərsky" müşahidə peyki və 2018-ci ildə isə "Azərspace-2" peyki orbitə buraxılmışdı. "Azərsky" müşahidə peykinin rolunu, önəmini 44 gün davam edən İkinci Qarabağ müharibəsində, eyni zamanda, ondan sonrakı mərhələdə aydın görmək mümkündür. Məhz bu peyklərin vasitəsilə düşmənin hərəkətlərini onlayn formatda izləmək və onların təxribatlarının qarşısını almaq Azərbaycana əlavə üstünlüklər qazandırmışdır. Bir mühüm məqamı da qeyd edək ki, xarici KİV-lərə müsahibələri zamanı Ermənistanın İkinci Qarabağ müharibəsində Azərbaycanın beynəlxalq səviyyədə qadağan edilmiş raketlərdən istifadə etdiyi barədə əsassız iddiaları ilə bağlı qərəzli suallara cavabında ölkə Prezidenti daim bu reallığı diqqətə çatdırırdı ki, müasir texnologiyaların inkişaf etdiyi hazırkı dövrdə hər bir dövlət bu raketlərin hansı tərəfdən atıldığını izləmək imkanındadır. Təbii ki, dövlətimizin başçısı bu kimi açıqlamaları ilə Azərbaycanın texnoloji sahədə böyük imkanlara malik olduğunu da dünyaya çatdırdı. Qeyd edilən qəbulda da "Əlbəttə ki, mən texnoloji inkişafla bağlı görülmüş işlər arasında peykləri qeyd etməliyəm" söyləyən cənab İlham Əliyev bildirmişdir ki, həm telekommunikasiya, həm də Yer səthini müşahidə edən peyklərimiz qarşıda duran bütün vəzifələri icra etmək üçün geniş imkanlar yaradır. Vətən müharibəsində Azərbaycanın apardığı əməliyyatlar dünyada hərbi ekspertlər tərəfindən XXI əsrin müharibəsi adlandırıldı. İkinci Qarabağ müharibəsi texnoloji inkişaf baxımından bir yenilik kimi dəyərləndirilir".

V.Rəhimzadə vurğulayıb ki, bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir: "Azərbaycan İKT sahəsində təkcə region deyil, həm də beynəlxalq aləm üçün əhəmiyyətli olan tədbirlərin fəal iştirakçısı və təşkilatçısıdır. O da məlumdur ki, Azərbaycan 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək. Bu tədbir bir dəfə - 1973-cü ildə keçmiş Sovetlər İttifaqı dövründə Bakı şəhərində keçirilib. O zaman ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbəri kimi böyük səy göstərmişdi ki, Sovet İttifaqında ilk dəfə keçirilən bu Konqres məhz Bakıda təşkil edilsin. Təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu Konqresin keçirilməsi böyük rəmzi məna daşıyır. Keçmiş İttifaqda məhz Bakının Astronavtika Konqresinin məkanı kimi seçilməsi böyük uğur idi. Bu mühüm hadisəni Azərbaycanın növbəti qələbəsi kimi dəyərləndirən dövlətimizin başçısı ölkəmizin bu tədbirə ev sahibliyini böyük məsuliyyət və bununla bərabər malik olduğumuz imkanların təqdimatı baxımından böyük fürsət olduğunu vurğulayır.

Qürurverici haldır ki, həmin beynəlxalq tədbirdə Azərbaycanın texnoloji sahədə qazandığı yeniliklərin böyük rol oynadığı İkinci Qarabağ müharibəsində ölkəmizin Qələbəsindən də bəhs ediləcək. Ölkəmizin Vətən müharibəsində tətbiq etdiyi taktika beynəlxalq ekspertlər tərəfindən öyrənilir, araşdırılır, bu Qələbəmizin yeni-yeni nəşrlərdə, dərsliklərdə əksini tapacağı şəksizdir. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, biz hər bir sahədə gücləndik, münaqişənin həlli üçün möhkəm hüquqi baza yaratdıq".

Baş redaktor diqqəti dövlətimizin başçısı İlham Əliyevin gələcəkdə müsbət dinamikanı qorumaq və inkişaf etdirmək üçün açıqladığı hədəflərə yönəldib: "Təbii ki, bütün dövrlər üçün aktual olan məsələlərdən biri kadr hazırlığıdır. Yeni texnologiyaların inkişafı və tətbiqi sahəsində atılan addımların davamlılığını təmin etmək üçün xüsusilə gənclərin bu işlərə geniş miqyasda cəlb edilməsi əsas çağırışlardandır".

"Artıq Azərbaycan postmüharibə dövrünü yaşayır" söyləyən V.Rəhimzadə belə bir ümumiləşdirməni aparıb ki, istər 44 günlük İkinci Qarabağ müharibəsi, istərsə də koronavirus infeksiyası ilə mübarizə Azərbaycanın malik olduğu imkanların təqdimatında mühüm rol oynadı: "Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, yeni texnologiyaların tətbiqi bundan sonra da hərbi gücümüzü daim yüksək səviyyədə saxlamağımıza imkan yaradacaq. Həm qəhrəman övladlarımızın şücaəti, fədakarlığı, eyni zamanda, texniki təchizat və yeni texnologiyaların tətbiqi müharibədə Qələbənin qazanılmasının əsas amillərindən biridir.

COVID-19-la birgə mübarizəyə dəstək məqsədilə dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərin, görüşlərin özünütəcrid qaydalarına uyğun olaraq videoformatda təşkili hər bir ölkənin, o cümlədən Azərbaycanın innovasiyalar sahəsində mövcud imkanlarına işıq saldı. Ölkəmiz bu sahədə də liderliyini qorudu. Bütün bu reallıqlar fonunda bu fikri böyük inamla ifadə edə bilərik ki, qarşıdakı illərdə Azərbaycan bu sahədə daha da böyük uğurlara imza atacaq".

# İqor Korotçenko: “Rəngli inqilabların bumeranqı ABŞ-a qayıtdı”

***Bayden prezident vəzifəsinə başladı. Amerikanın bir hissəsi müsbət dəyişikliyi gözləyir. Ancaq digər hissəsi məğlubiyyəti qəbul etmədi. Etirazlar ölkənin bir hissəsində geniş yayılıb və davam edir. Son illərdə ABŞ dünyada fəal şəkildə rəngli inqilablar aparır. İndi bu bumeranq tarixi vətəninə qayıdır? Rusiyanın nüfuzlu hərbi eksperti, “Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko bu məsələləri “Pravda”ya müsahibəsində şərh edib. Müsahibəni təqdim edirik.***

**- İqor, ABŞ-ın 46-cı prezidentinin andiçmə mərasimi oldu. Tramp isə yeni bir partiya yaratdığını elan etdi. Ənənəvi olaraq Amerikanın 2 aparıcı partiyası var. Ümumiyyətlə qəbul edilmiş siyasi sistemin pozulmasından danışmaq olarmı? Bütün bu hadisələri necə qiymətləndirirsiniz?**

- Düzü, heç bir güclü alternativ partiyaya inanmıram. Hər hansı bir yeni və ya köhnə partiyanın faktiki olaraq hakim partiyalar- Demokratik və Respublikaçı partiyalarla rəqabət etməsi ehtimalı çox azdır. Bununla birlikdə, Tramp həqiqətən, ona səs verən və onu izləməyə hazır olan 70 milyondan çox insanın əksəriyyətini birləşdirəcək bir ictimai-siyasi hərəkat yarada bilər. Bu, eks-prezidentin şəxsi seçki potensialıdır, amma Respublikaçılar Partiyası deyil.

Bəlkə də Tramp indi dövlətə xəyanət ittihamlarından çəkinərsə, ona səs verən insanlar, 4 il içərisində siyasi bir möcüzə göstərməyə və Ağ Evə qayıtmağa imkan verən bir üstünlük yaradar. Buna inanmaq çətin olsa da.

## ABŞ Sovet İttifaqının dağılması dövründə

Baydenə gəlincə, o, mənə Sovet İttifaqının siyasi xadimi Konstantin Ustinoviç Çernenkonu xatırladır- qısa müddət ərzində ölkənin sistemində ən yüksək vəzifələrə yüksəldilmiş və sürətlə unudulan bir adam.

Demək olar ki, 80 yaşındakı Bayden, keçmişdə Çernenkoda olduğu kimi bu cür fiziki formadadır, ya yuxuya gedir, ya unudur ya da sadəcə emosional olaraq tükənir və Amerika Birləşmiş Ştatları Prezidentinin vəzifələrini tam yerinə yetirməsi onun üçün olduqca çətindir- xüsusən də ABŞ-ın bu gün olduğu vəziyyətdə.

Açılış mərasiminin özü, əlbəttə ki, 3-cü dərəcə Latın Amerikası diktaturasının mühasirəyə aldığı bir qaladakı bir hərəkətə bənzəyirdi. Silahı olan insanlar, kütləvi kordonlar, çeklər, döyüşə hazır bir şəkildə terror hücumlarını gözləmək mühiti - Prezident Baydenin andiçmə mərasimini müşayiət edən budur.

Allah bu 4 ili tam işləməsini nəsib etsin. Axı ABŞ-ın 46-cı prezidentinin yaşı və fiziki vəziyyəti elədir ki, hər an ölümcül bir hadisə baş verə bilər və daha sonra hind əsilli, olduqca eksentrik bir qadın olan hazırkı vitse-prezident Harris dövlət başçısı vəzifəsinə gətirilə bilər.

## Bütün sistemin köhnəlməsi



Bir sözlə, bugünkü Amerika gerçəkliyi sistemin sonunun həqiqətən havada olduğu hissini doğurur. 1980-ci illərin 2-ci yarısında təxminən eyni hissləri yaşadım - qarşıdakı SSRİ üçün dəhşətli və qaçılmaz bir şey gözləyirdim. Mənə elə gəlir ki, Amerika Birləşmiş Ştatları bu gün belə bir vəziyyətdədir.

Biz heyrətləndirici şeyləri müşahidə etdik- ABŞ-ın siyasi sistemi necə dəyişdirildi, ağları diz çöküb qaradərililərin ayaqqabısını öpməyə məcbur edən nə kimi poqromlar var idi.

Trampın Vaşinqtondakı son günlərini də xatırlayırıq - Kapitoliyə basqın, ən yüksək qanunverici orqanların ələ keçirilməsi, ölümlə nəticələnən hallar da daxil olmaqla Konqres daxilində polislə toqquşmalar. Əlbəttə ki, COVID-lə mübarizə adı altında ən yüksək bioloji qoruma kostyumları olan insanların Ağ Evdə Trampdan sonra qalan hər şeyin təqribən 300 min dollar dəyərində olan dezinfeksiyasının nümayişi.

Bir sözlə, baş verən hadisələr, Birləşmiş Ştatların hələ böhrandan keçmədiyini və hər an daha böyük problemlərin ölkənin üzərinə düşə biləcəyini fərz edir.

**- Bəli, “melodiyanı sifariş edənlərin” yüksək intellektual bir təşkilat olmasına işarə etməyən çox əsəbi və emosional hərəkətlər var idi.**

- Əlbətdə ki, insan amili var. ABŞ-ın bugünkü siyasi elitası- sonrakı Brejnev Siyasi Bürosu- onsuz da marazmatik pozğunluqların astanasında olan yaşlı insanlardır. Prezidentin özü də son illərdə Brejnev kimi onu daimi müşayiət edən növbətçi reanimatoloq komandasının tələb olunduğu bir vəziyyətdədir.

Çernenko, xatırladığım qədər, Movzoleyin kürsüsündə sadəcə soyuqladı və öldü. Göründüyü kimi, Baydenin səhhəti elədir ki, Amerika gizli xidməti ona qayğı göstərməlidir. Rusiyanı nəzərə almasanız, hələ də Yer üzündə ən güclü nüvə dövlətidir.

Bu vəziyyətdə bu cür tarixi paralelləri görəndə içimdə dərin bir heyrət hissi oyanır. Çox güman ki, ABŞ yenidənqurma önündədir. Sovet İttifaqı üçün bu proses SSRİ-nin dağılması ilə sona çatdı. Bu və ya digər səbəbdən həmin Harris Baydenin yerinə gələ bilər. Bəlkə də o amerikalı Qorbaçova çevriləcək. Artıq orada çox şey dəyişir və transgenderlər, LGBT, BLM mənsubları yeni Amerika rəhbərliyinə dəvət olunub. Onların peşəkar keyfiyyətləri son dərəcə aşağıdır.

**- İqor, dediniz ki, ABŞ indi SSRİ-nin dağılması kimi başa çata biləcək yenidənqurma ilə üzləşir. Üstəlik, yeni prezident komandasının üzvlərinin peşəkarlığı çox aşağıdır...**

- Bəli, bütün bunlar ABŞ-ı gözləyir. Ağ Evin yeni komandasının peşəkarlıq səviyyəsi son dərəcə aşağıdır. Bu səbəbdən Amerikanı necə idarə edəcəkləri və xarici dünya ilə necə əlaqələr quracaqları da bəlli deyil. Bu, əlbəttə ki, çox böyük bir çətinlik yaradır.

Sızıntılarda səslənən yeganə müsbət siqnal, Baydenin andiçmə mərasimindən 2 həftə sonra bitən Strateji Nüvə Silahlarının məhdudlaşdırılmasına dair START III Müqaviləsini yeniləməyə hazır olmasıdır.

Bunu etmək üçün çox dar bir fürsət pəncərəsi var. Bu olarsa, çox yaxşı bir işarə olacaq. Biz də ABŞ ilə nüvə və raket silahları yarışına qarışmaq ehtiyacından qurtulacağıq. Bu olmazsa, dünya daha da gözlənilməz və təhlükəli hala gələcək.

**- Sizcə, ABŞ-ın özündə vəziyyət necədir? Koronavirus pandemiyası, sərhədlərin bağlanması, hava səyahətinin məhdudlaşdırılması ilə əlaqədar amerikalıların evdə dövlət çevrilişi etməsi lazım olduğu bir zarafat var idi. Bu və ya oxşar bir şey mümkündürmü?**

- Bu, ABŞ-a uçan bumeranqdır. Həm də dünyada, ilk növbədə keçmiş Sovet məkanında, Orta Şərqdə və Cənub-Şərqi Asiyada hakimiyyəti dəyişdirmək üçün rəngli inqilablar etdilər. İndi bu bumeranq geri qayıtdı. Əslində, Amerika cəmiyyəti düşündüyümüz qədər firavan deyil. Fərqli xalqlardan, mühacirlərdən meydana gəlmiş yeni bir siyasi təbəqəni vəhşicəsinə əridən qazana çevrilib.

**- Sovet hakimiyyəti dövründə dediyimiz kimi “yeni insanlar cəmiyyəti”.**

- Bəli. Orada “vahid xalq” məsələsi alınmadı.

- Amma onlar hamısı amerikalılardır...

- Hamısı amerikalılardır, lakin yaratmağa və irəliləməyə hazır olan vahid xalq olmadılar. Xaos, tənəzzül, irqi qarşıdurmalar görürük. Bu gün orada qara irqçilik geniş yayılıb, ABŞ-ın ağ əhalisinə qarşı rəngli irqçilik. Bu dərin bir parçalanmadır.

Amerika bu gün, məsələn Ukrayna kimi parçalanmışdır. Aydındır ki, orada Tramp üçün, möhkəm mühafizəkar dəyərlər üçün, Amerikanı yenidən böyük etmək üçün, ənənəvi bir ailə üçün, sərbəst olaraq odlu silahlara sahib olmaq üçün ən azı 70 milyon insan var. Əlbəttə ki, əsas Amerika dəyərləri, Baydenin Amerikaya gətirdiyi insanlara, fikirlərə və ideologiyaya ziddir. Buna görə ABŞ-ın taleyinin nə qədər proqnozlaşdırıla biləcəyi ilə bağlı çox narahatlığım var. Qızdırmalar və titrətmələr var, bunun necə bitəcəyi bilinmir.

Ən əsası, nüvə silahları üzərindəki mərkəzləşdirilmiş nəzarət sistemi- Baydenin əlində olacaq nüvə çemodanıdır. Allah qorusun ki, o nüvə çamadanının düyməsini, məsələn prezidentin su dolabının qapısının dəstəyi ilə qarışdırmasın. Burada bəzi başqa nəzarət sistemlərinə ehtiyac var. Birinin belə yuxarı bir yaşda olan Baydenin ölümcül səhvlər etməməsi üçün onu idarə edəcəyinə inanacağıq. Heç olmasa mühafizəçisinin.

**- Xarici siyasətdə ediləcək bütün səhvləri, Bayden çoxdan- bu istiqamətdən məsul olduğu zaman etmişdi. İraq, Əfqanıstan, Liviya, Suriya və sair - “tumurcuqlarımız hər yerdə yetişdi.” Buna görə də adi üslubunda hərəkət etməyə başlayacağını düşünmək üçün bütün əsaslar var. Koronavirus da daxil olmaqla, ABŞ-da mövcud olan çox çətin bir vəziyyətlə əlaqəli, həmçinin də yaşı və sağlamlığı nəzərə alındıqda, dünyada demokratiya tətbiq edilməsinə qətiyyən uyğun olmaya bilər. Necə düşünürsünüz? Bizim üçün daha yaxşı ola bilərmi?**

- Belə düşünmürəm. Rusiyanın birbaşa düşmənləri yeni rəhbərliyə qoşulmağa dəvət edildi. Viktoriya Nuland, Rusiyaya dərin bir nifrət hissi bəsləyir. ABŞ-ın Moskvadakı keçmiş səfiri Makfol qayıdır, Kerri geri dönür.

Bunlar kifayət qədər güclü və təhlükəli oyunçulardır. Rusiyanın güclü və zəif tərəflərini bilirlər. Makfol Rusiyadakı qeyri-sistem müxalifət liderlərinin hamısını tanıyır. Hər halda Amerika rəhbərliyinin qlobal hədəfləri eyni olaraq qalır - ölkəmizin inkişafını dayandırmaq və geri çəkdirmək.

Biz ABŞ-ın potensial hərbi düşməniyik və əlbəttə ki, Amerikanın Rusiyaya qarşı açıq hərbi qarşıdurmasında heç bir şey işıq saçmır, çünki nüvə silahları nisbətləri tarazlaşdırır. Buna görə də əsas güc Rusiyanı daxildən sarsıtmaq üçün iqtisadi metodlara qoyulacaqdır.

Bu, “Şimal Axını- 2”-yə vurulan zərbə, Amerikanın düşmənlərinə qarşı sanksiyalar haqqında bədnam qanunun istifadəsi, Rusiya dövlət borcuna qarşı iqtisadi sanksiyaların tətbiqi- əslində, xarici investorların Rusiya qiymətli kağızlarına investisiya qoyuluşlarının qadağan edilməsi və digər bütün mümkün tədbirlər ola bilər.

***Tərcümə: Elçin Bayramlı***

## Cavad Zərifdən erməni həmkarına sillə kimi cavab



***İran xarici işlər naziri Cavad Zərif ermənistanlı həmkarı Ara Ayvazyanla görüşüb. “İki sahil” xəbər verir ki, Ara Ayvazyan Cavad Zərifin Azərbaycan prezidentini və xalqını Qarabağın işğaldan azad olunması ilə bağlı təbrik etməsindın narazılığını üstüörtülü formada bildirib.***

Belə ki, erməni nazir “Qarabağdakı son müharibənin nəticələri regionda sülh üçün əsas ola bilməz. Regionda təhlükəsizliyi və stabilliyi yalnız qalib ya məğlubun olmadığı sülh təmin edə bilər “- deyib.

Buna cavab olaraq, Cavad Zərif erməni diplomata ölkələrin ərazi bütövlüyü prinsipi barədə danışıb: “İran bütün ölkələrin ərazi bütövlüyünə böyük önəm verir”.

# Milli Şura yenə canfəşanlıq

***Bölgədə yeni dövr başlayır - sabitlik və quruculuq dövrü. 2021-ci il yanvarın 11-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putinin şəxsində dövlət başçılarının imzaladığı üçtərəfli bəyanat regionda sabitliyin təmin olunması və geniş quruculuq işlərinə başlanması baxımından növbəti uğurlu addım oldu. Bu bəyanat bütövlükdə regionda iqtisadi, ticari, nəqliyyat və humanitar əlaqələrin bərpasına xidmət edir. Bundan sonra tarixi əhəmiyyət daşıyan bu məsələlərin həlli ilə məşğul olmaq üçün hər üç ölkənin Baş nazirlərinin müavinləri səviyyəsində birgə İşçi Qrupu yaradılacaq. Həmin İşçi Qrupuna 2021-ci ilin martın 1-nə kimi konkret mexanizm və vaxt çərçivəsi müəyyən etməklə regionda kommunikasiyaların açılması, iqtisadi və ticarət əlaqələrinin bərpa olunması tapşırılacaq. Bu, həm region dövlətlərinin, o cümlədən Türkiyə, İran, Rusiya, Gürcüstan, Ermənistan və Azərbaycanın, həm də digər dövlətlərin mənafeyinə uyğundur.***



**Qafar ƏLİYEV,**
**YAP Siyasi Şurasının üzvü**

Artıq Azərbaycanın və dünyanın bir çox siyasətçiləri bu üçtərəfli bəyanatı Azərbaycanın strateji maraqlarına uyğun gələn, bizi strateji hədəflərimizə daha da yaxınlaşdıran və regionda sabitliyin və təhlükəsizliyin davamlı olması istiqamətində əhəmiyyət daşıyan bir sənəd kimi dəyərləndiriblər. Qəhrəman Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müzəffər Azərbaycan Ordusu tarixi zəfərə imza atmaqla təkcə işğal altındakı torpaqlarımızı azad etmədi, eyni zamanda, regionu get-gedə güclənməkdə olan erməni terroru və faşizmi təhlükəsindən xilas etdi. Nəticədə, 30 ildən sonra bölgəmizdə sülh və əmin-amanlıq mühitinin formalaşması üçün olduqca əlverişli şərait formalaşdı. Deməli, Azərbaycan Respublikasının işğalçı Ermənistan üzərində həm hərbi, həm siyasi, həm də informasiya cəbhələrində qazandığı tarixi qələbələr öz əhəmiyyəti baxımından region səviyyəsini aşaraq qlobal məzmun kəsb etməkdədir.

Hazırda Azərbaycanın döyüş meydanında qazandığı qələbə diplomatik meydanda davam etdirilir. Ermənistan dövləti və xalqı artıq məğlub olduğunu anlayır və yavaş-yavaş Dağlıq Qarabağın Azərbaycana məxsus olması fikri barədə beynəlxalq ictimaiyyətin formalaşmış mövqeyi ilə hesablaşmağa məcbur olur. Yalnız dünyanın bəzi ölkələrində erməni lobbisinin təsiri altında olan siyasi dairələr, Ermənistanda bəzi revanşist qüvvələr və bir də Azərbaycanda adını milli qoymuş, əslində isə antimilli qüvvə kimi fəaliyyət göstərən "Milli Şura" təmsilçiləri öz məkrli məqsədlərini (pul, var-dövlət və hakimiyyətə gəlmək planları və s.) pərdələyərək ağzına gələni danışmaqla vəziyyəti qarışdırmağa, ictimaiyyəti çaşdırmağa cəhd edirlər.

Artıq Qarabağ bölgəsində dinc quruculuq və yeni inkişaf dövrü başlayıb. Azərbaycan ilk növbədə, erməni millətçiləri tərəfindən işğal edilmiş bütün torpaqlarda yerlə-yeksan edilmiş binaları, tarixi abidələri, məscidləri, qəbirləri, məzarlıqları və digər dağıntıya məruz qalmış obyektlərin hamısını bərpa etmək üçün dinc şərait və imkan qazanıb. Digər tərəfdən 30 il blokada vəziyyətində qalan Naxçıvanla birbaşa avtomobil və dəmiryolu əlaqəsi yaranır ki, bu da Muxtar Respublikanın inkişafı, gediş-gəliş və yükdaşımaları ilə bağlı problemlərin aradan qalxması deməkdir. Azərbaycanla Naxçıvan arasında nəqliyyat dəhlizinin işə düşməsi həm də Türkiyə ilə Naxçıvan vasitəsilə quru əlaqələrimizin yaranması deməkdir. Bu xəttin işə düşməsi nəticəsində Türkiyənin Azərbaycan üzərindən türk dünyasına asan çıxışı təmin ediləcək. Bununla da Rusiya ilə Türkiyə, eyniləda İran-Türkiyə-Rusiya arasında iqtisadi əlaqələr güclənəcək və Azərbaycan ortaq körpü rolunu oynayacaq.

Digər bir tərəfdən isə, Azərbaycan İpək yolu marşrutu üzrə ikinci alternativ dəhliz qazanır. Əgər bu dəhliz açılarsa, ölkəmiz Gürcüstandan əlavə, ikinci, lakin daha qısa yolla yükləri beynəlxalq bazarlara daşımaq imkanı qazanacaq.

Bununla belə, Azərbaycanın terror və faşizmi dövlət siyasəti səviyyəsinə qaldırmış işğalçı Ermənistan üzərində qazandığı tarixi zəfər bəzi Qərb dövlətlərində, o cümlədən Fransa, Hollandiya və başqalarında müəmmalı narahatlıq doğurmuş və onların bir sıra nüfuzlu kütləvi informasiya vasitələrində Azərbaycan əleyhinə qərəzli yazılar, tənqidi məqalələr, süjetlər, şərhlər və s. getmişdir. Belə KİV təmsilçiləri müharibənin getdiyi qızğın vaxtlarda, hətta Azərbaycana gələrək Prezident İlham Əliyevə ünvanladıqları təxribatçı suallarla da öz ermənipərəst mövqelərini açıq şəkildə büruzə vermişdilər. Belə "Qərb jurnalistləri"nin bir çox hallarda verdiyi təxribatçı və qərəzli suallara dərin zəka, intellekt, analitik düşüncə qabiliyyəti və zəngin təcrübə sahibi olan Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən verilmiş sərrast cavablar qarşı tərəfi çıxılmaz vəziyyətə salmışdı.

Göründüyü kimi, bəzi Qərb təmsilçiləri Azərbaycanın legitim hərbi uğurlarını və buna adekvat olaraq regionda Azərbaycan, Türkiyə və Rusiya tərəfindən həyata keçirilən uğurlu sülh prosesinin regiona sabitlik, sülh və təhlükəsizlik mühiti gətirdiyini təqdir etmək əvəzinə, terrorçu və işğalçı ölkə olan Ermənistanı müdafiə edir və Azərbaycana qarşı isə geosiyasi təzyiq alətinə çevirdikləri "demokratiya", "korrupsiya", "insan hüquqları" və s. kimi terminləri ortaya atıb dünya ictimaiyyətini əsl məqsəddən yayındırırlar. Belə ermənipərəst, islamofob və anti-Azərbaycan qüvvələrin əsl məqsədi təbii ki, aydındır. Aydın olmayan isə "Milli Şura" təmsilçilərinin müharibə dövründə və ondan sonra göstərdiyi fəaliyyətdir.

2018-ci ilin aprelindən başlamış yeni siyasi konfiqurasiya, çoxpartiyalı sistem əsasında yeni Milli Məclisin formalaşması, dialoq mühitinin bərqərar olması ilə ölkəmizin ictimai-siyasi həyatında yeni dövr başlanmışdır. 2019-cu ilin noyabrın 29-da Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasında yenicə yaranmış Siyasi Partiyalar və Qanunvericilik Hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya yeni siyasi dialoq prosesinə qoşularaq aparılan siyasi və iqtisadi islahatlara dəstək və həmrəylik nümayiş etdirdi. Bu məqsədlə bütün həmin siyasi partiya rəhbərlərinin bəyanatı yayılıb, mövqeləri ortaya qoyulub. 44 günlük müharibənin ilk günündən həmin siyasi partiyalar tərəfindən birgə bəyanat verilməklə dövlətimizin apardığı siyasəti və ordumuzun haqlı və ədalətli müharibəsində əllərindən gələn hər bir köməyi əsirgəməyəcəklərini bəyan etdilər. Daha sonra 2020-ci il oktyabrın 3-də Prezident Administrasiyasında "Milli həmrəylik - siyasi dialoqun nəticəsi" adlı videokonfrans formatında görüş keçirildi. Ölkənin əksəriyyət təşkil edən siyasi partiyalarının rəhbərləri bir araya gəlməklə, Azərbaycanda yaranmış milli və siyasi həmrəyliyi bir daha möhkəmləndirdilər. Onlar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında aparılan Vətən Müharibəsində xalqımız və ordumuzla birlikdə yumruq kimi birləşəcəklərini və çiyin-çiyinə vuruşacaqlarını bəyan etdilər. Lakin özündən razı və müştəbeh olan radikal müxalifəti təmsil edən AXCP, Müsavat partiyalarının üzvləri və "Milli Şura" təmsilçiləri bu dəfə də Prezidentin və xalqımızın çağırışına qoşulmadılar.

1992-1993-cü illərdə Birinci Qarabağ müharibəsi zamanı da AXC-Müsavat fəalları o vaxtkı hakimiyyətə təsir etmək gücünə malik olsalar da, Vətən darda olanda siyasi ambisiyaları bir kənara qoyub hakimiyyətin ən yuxarı eşalonunda əyləşmiş insanlarla ortaq dil taparaq və onlara təsir edərək torpaqlarımızın müdafiəsini təşkil etməli olduqları halda, buna getmədilər və milli cəbhə, Milli Birlik hökuməti yaratmadılar. Daha sonra AXCP-Müsavat cütlüyü 1992-ci ilin may-iyun aylarında hakimiyyətə gələrək bütün ali orqanları, müdafiə, daxili işlər, xarici işlər, milli təhlükəsizlik və başqa əhəmiyyətli nazirlikləri ələ keçirib mühüm postlar tutsalar da, ölkədə milli həmrəylik, milli birlik yaratmadılar. Bununla da Azərbaycan torpaqlarının işğalının qarşısını ala bilmədilər. Həmin vaxt ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yenicə yaranan və qeydiyyatdan keçən Yeni Azərbaycan Partiyası öz nizamnaməsində milli həmrəyliyi və konstruktiv əməkdaşlığı əsas prinsip elan etsə də, bu barədə AXC-Müsavat iqtidarına dəfələrlə çağırış olsa da onlar bu çağırışlara, hakimiyyətdən getmələrinə az qalan vaxta qədər məhəl qoymadılar. Yalnız Kəlbəcər işğal olunduqdan və Gəncə hadisələri baş verdikdən sonra AXC-Müsavat iqtidarı bu zərurəti - Milli Birliyin və Həmrəyliyin zəruriliyini dərk edərək o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində işləyən Heydər Əliyevi Azərbaycan rəhbərliyinə dəvət etdi.

AXCP-nin "Milli Şura"da təmsil olunan nümayəndələri II Qarabağ müharibəsində də Azərbaycan Prezidentinin və digər siyasi partiyaların xalqa ünvanlanan həmrəylik çağırışlarına qoşulmadılar, özləri demişkən "bəyanat verməklə kifayətləndilər ki, iqtidarın gözü arxada qalmasın". İndi isə döyüş qurtarandan və hər şey həll olunub müharibə zəfərlə başa çatandan sonra xalqımızın şanlı qələbəsinin tarixi əhəmiyyətinin üzərinə kölgə salmağa çalışır, nəticələri təftiş edir və bu hərəkətləri ilə anti-Azərbaycan qüvvələrlə bir mövqedə dayanırlar.

Cəmi 44 gün davam edən müharibə Azərbaycan Prezidentinin rəhbərliyi altında qələbə ilə nəticələndi. Prezident İlham Əliyevin bəyan etdiyi "Qarabağ Azərbaycandır!" şüarı xalqımızın müqəddəs torpaqlarımız uğrunda savaşının ideya əsası, qələbəyə səsləyən lider çağırışı oldu. Bütün xalq bu çağırışa səs verdi, birləşdi, qələbəmizin əsasına çevrilən milli birliyimizi və həmrəyliyimizi formalaşdırdı. Fəqət, "Milli Şura" təmsilçiləri bu tarixi prosesdən kənarda qaldı. İndi böyük Qələbə əldə edildikdən və xalqımız bu Qələbənin şirinliyini yaşadığı bir vaxtda onlar yenə də əks-təbliğat cəbhəsi açaraq fəaliyyətə başlayıblar. Bəs əldə edilən uğurlu nəticələr, 44 günlük müharibə və imzalanmış sazişlə bağlı məntiqsiz fikirlər söyləyən, uğurlarımıza kölgə salmağa cəhd edən "Milli Şura" təmsilçilərinin əsl məqsədi nədir, onlar nədən və niyə narazıdır?

Aydındır ki, bu qruplaşmanın əsl məqsədi yenidən hakimiyyətə gəlməkdir. Əldə edilən bu möhtəşəm Qələbə ilə onların hakimiyyətə gəlmək arzuları yenə xülyaya çevrildi. Radikal müxalifət bu iqtidarın dövründə, son 27 ildə bir qarış belə torpağın alınmadığını və bundan sonra da alınmayacağını əminliklə deyirdi. Bəs, nə oldu? İndi buna nə sözünüz var?

İndi də başlayıblar "Rusiya qoşunları niyə gəldi", "Azərbaycan Ordusunun Xankəndinə girməsinə cəmi 3-4 gün qalırdı, niyə 8 noyabr üçtərəfli bəyanatı imzalandı", "niyə 11 yanvar 2021-ci ildə Moskvada üçtərəfli bəyanat imzalandı" və s. kimi sərsəm fikirlər səsləndirməyə. Ermənistanda ordunun məğlub olmasına görə müxalifət Nikol Paşinyanı günahlandırır, onu istefaya çağırırlar. Bizdə isə Ordunun qalib

# edib aranı qatır

gəldiyini, Qələbə çaldığını radikal müxalifət qəbul edir, lakin Ordunun Ali Baş Komandanının adını dilə gətirmək istəmir və onu günahlandırmaq üçün əlavə arqumentlər, şər, böhtanlar söyləyir. Bununla da bir daha "Milli Şura" təmsilçiləri xalqın, dövlətin və dövlətçiliyin, milli maraqlarının əleyhinə getmiş olurlar.

YAP funksionerlərinin və bir çox millət vəkillərinin söylədiyi AXCP və "Milli Şura" adlanan qurumun "Azərbaycanda "beşinci kolon" funksiyasını icra etdiyi hamıya bəlli olan həqiqətdir" - fikri artıq təsdiq olunur. Baş nazirin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində yayımladığı "Beşinci kolon"un təxribat niyyətləri" sərlövhəli məqaləsində yazır: "Beşinci kolon" Azərbaycanda yeni hadisə deyil. Müəyyən sükunətdən və konspirasiyadan sonra üzə çıxmaq, açıq fəaliyyətə keçmək tapşırıqları aldığı sezilməkdədir. İllər boyu formal da olsa, istifadə etdikləri siyasi müxalifət imicinə görünür daha ehtiyac duymurlar. "Beşinci kolon"un siyasi müxalifət mərhələsindən birbaşa açıq təxribatçı qruplaşma mərhələsinə keçdiyi aydın şəkildə müşahidə olunur. Hər şeyi öz adı ilə çağırmağın vaxtı çatıb. Azərbaycanda "beşinci kolon" funksiyasını Azərbaycan Xalq Cəbhəsi Partiyası və "Milli Şura" adlanan qurumun icra etdiyi hamıya bəlli olan həqiqətdir. Hər iki qruplaşmanın adında xalq və milli sözlərinin olması yəqin ki, diqqətdən yayınmadı. Maskalanmaq üçün bu iki sözdən daha uğurlusunu düşünmək çətindir. Ancaq hər kəs gözəl bilir ki, birincini xalqla, ikincini isə millətlə bağlayan heç nə yoxdur. Hər iki ifadə yuxarıda adıçəkilən qruplaşmaların antimilli mahiyyətini pərdələmək məqsədinə xidmət göstərir".

Əvvəllər də radikal müxalifət təmsilçilərinin ümummilli, ümumdövlət əhəmiyyətli məsələlərdə heç bir zaman konkret və birmənalı yanaşması olmamışdır. Müharibə başlanmasından bir az öncə, 2020-ci il avqustun 11-də "Milli Şura" sədri Cəmil Həsənli Türkiyə hərbi bazalarının respublikamızda yerləşdirilməsinə etiraz etmişdi. Lakin "Milli Şura"nın digər üzvü Gültəkin Hacıbəyli isə "Osmanqızı TV"-də çıxış edərək Azərbaycanda Türkiyənin bir neçə hərbi bazasının qurulmalı olduğunu demişdi. G.Hacıbəyli Azərbaycanla münaqişədə olan ölkədə Rusiyanın hərbi bazasının olduğunu və həmin hərbi bazadan Ermənistanı silahlandırdığını, Azərbaycan ərazisində heç olmasa indi Türkiyə hərbi bazasının yerləşdirilməli olduğunu qeyd etmişdi. O, həm də demişdi ki, Azərbaycanda Türk ordusunun yerləşdirilməsinin ən böyük əleyhdarı İlham Əliyev hakimiyyətidir. Nə qədər ki, Əliyevlər hakimiyyətdədir, onlar Türk ordusunun Azərbaycanda qalmasına razı ola bilməzlər. Sevinc Osmanqızı onun sözünü kəsərək deyib ki, "Azərbaycanda heç bir hərbi bazaya ehtiyac yoxdur". Yalnız bundan sonra C.Həsənli də əsas məsələyə gəlib çıxaraq öz mövqeyini bildirib və deyib ki, "Azərbaycanın ərazisində hansısa hərbi bazanın olması məqsədəuyğun deyil". Əli Kərimli də öz çıxışında "Azərbaycanın ərazisində hansısa hərbi bazanın olmasının məqsədəuyğun olmamasını dəfələrlə deyib. Digər üzvlər də Türkiyə hərbi bazalarının Azərbaycanda yerləşdirilməsinə qarşı çıxmışdılar. "Milli Şura"nın başqa bir təmsilçisi olan Anar Məmmədli isə bildirib ki, Ərdoğanın rəhbərlik etdiyi Türkiyə ilə yaxınlıq məsələsində diqqətli olmalıyıq. C.Həsənli isə cəmi 2 ay sonra yenidən çıxış edərək "Türkiyə hərbi bazasının Azərbaycana gəlməli olduğunu əsaslandırıb".

Göründüyü kimi, hakimiyyətə gəlməyi planlaşdıran "Milli Şura" adlı qurumun təkcə bir məsələdə qeyri ciddi yanaşması və fərqli-fərqli mövqeləri var. Onlar öz aralarında belə, bir məsələni müzakirə edib hansısa nəticəyə gələ bilmirlər. "Milli Şura"nın rəhbərliyində olanlar bir-birinin fikirlərini, çıxışlarını izləmir, oxumur və hətta ən mühüm məsələlər barədə verdikləri "bəyanatlarla" belə maraqlanmırlar. Bir sözlə, "Milli Şura" adı ilə özünə "ana müxalifət" deyən bu təşkilatın rəhbərlərindən heç birinin o birilərinin nə danışdıqları barədə məlumatı belə yoxdur.

Bundan əlavə, hər gün sosial şəbəkələrdə "Milli Şura" təmsilçiləri xalqın gənc üzvlərini artıq 30 il bundan qabaq baş vermiş hadisələrin mahiyyəti ilə bağlı yalanlar söyləməklə onları çaşdırırlar. Onlar gah deyirlər ki, biz 30 il qabaq Rusiya Ordusunu Azərbaycandan çıxarmışdıq, Azərbaycan iqtidarı yenidən qaytardı, gah da deyirlər ki, "gərək Azərbaycan Ordusu sona qədər torpaqlarımızı işğaldan azad edəydi, sonra Rusiya ilə hansısa müqavilə bağlayaydı". Onlardan bəziləri də deyir ki, gərək Türk Ordusu da Rusiya ordusu ilə eyni vaxtda və eyni anda Azərbaycana gələydi" və s. Aydındır ki, bu fikirlərin və arqumentlərin hamısı görülən işlərin əhəmiyyətinə kölgə salmaqla bərabər reallıqdan uzaq olan fikirlərdir.

Beləliklə, Azərbaycanda "Milli Şura"nı narahat edən məsələlər aydındır:

- 30 ildən bəri Ermənistanın işğalı altında qalan ərazilərimizin işğaldan azad edilməsi, Azərbaycan Prezidentinin nüfuzunun artması, Azərbaycanın Türkiyə, Pakistan və islam ölkələri ilə, Rusiya və bir çox Qərb ölkələri, o cümlədən Qoşulmama Hərakatı üzvləri olan dövlətlərlə münasibətlərinin daha da güclənməsi və bu siyasətin sayəsində Azərbaycana beynəlxalq dəstəyin çoxalması, iqtidarın mövqeyinin artması və güclənməsi, Dağlıq Qarabağ problemi kimi

çətin və qəliz bir məsələnin məhz bu iqtidarın hakimiyyəti dövründə həll edilməsi, Qarabağda abadlıq və quruculuq işlərinə start verilməsi və s. digər məsələlər "Milli Şuranı" narahat edir. Onlar narahat olduğu qədər də öz məqsədlərinə - yəni hakimiyyətə gəlmək üçün gecə-gündüz alışıb yandıqları məqsəddən uzaqlaşırlar. Bunun üçün də canfəşanlıq edib yenə də aranı qatırlar.

# Rafael Hüseynov: Ermənistan gələcəyini düşünürsə, qarşıdurma cəhdlərindən əl çəkməlidir



Sessiya çərçivəsində Ermənistandan olan həmkarlarımızın siyasi qruplarda və ya komitələrdəki həqiqəti təhrif edən, saxta məlumatlar üzərində qurulan çıxışlarına reaksiyaya verməməyə, gərginliyi artırmamaq üçün belə çıxışları sərt cavablandırmamağa çalışıram. Azərbaycan əsas məsələni döyüş meydanında həll edib. Azərbaycan 44 gün davam edən müharibədə 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan ərazilərini azad edib. Qələbəmizə kənar kömək olmadan, ildən-ilə güclənən müzəffər Ordumuzun sayəsində nail olduq. Bu gedişatda ölkəmizə guya kənardan dəstək göstərilməsi kimi Ermənistanın iddiaları yalnız cəfəngiyat, əsası olmayan müddəalardır. Ermənistan artıq özünü Azərbaycanla müqayisə etməməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞPA qış sessiyası çərçivəsində Avropa naminə Liberal Demokratlar Alyansı siyasi qrupunun iclasında qrupun azərbaycanlı üzvü Rafael Hüseynov deyib.

Deputat bildirib ki, dövlət büdcəsində Azərbaycanda müdafiə xərclərinə ayrılan maliyyə vəsaiti Ermənistanın bütöv illik büdcəsinə bərabərdir. Azərbaycan iqtisadi cəhətdən güclü, inkişaf edən ölkədir. Amma bunu Ermənistan haqda demək olmaz.

"Azərbaycan yeni tarixi şərait və mərhələdə Ermənistanla əməkdaşlıq, konstruktiv dialoq tərəfdarı olduğunu bəyan edir. Bu gün Ermənistanın buna daha çox ehtiyacı var. Azərbaycanın məqsədi Cənubi Qafqazda harmoniyaya, ümimi inkişafa nail olmaqdır. Çünki belə bir inkişaf üçün Azərbaycan regionda açar dövlətdir. Azərbaycanın bütün regional və beynəlxalq iqtisadi layihələrdə həlledici mövqe tutması bunun bariz nümunəsidir. Ermənistan öz gələcəyini düşünürsə, qarşıdurma, konfrantasiya cəhdlərindən əl çəkməlidir. Belə addımlar onu daha çətin və ağır vəziyyətə sürükləyəcək.

Regional vəziyyətlə bağlı kifayət qədər məlumatı olmayanları Ermənistanın yalan iddiaları ilə aldatması qəbuledilməzdir. Son müharibə noyabrın 10-da bağlanan üçtərəfli bəyanat ilə tamamlanıb. Həmin müddətdə hər iki tərəfdən əsir və girov götürülənlərin hamısı tam tərkibdə mübadilə edilib.

Bundan sonra hərbi əməliyyatları davam etdirənlər artıq terrorçulardır və onlar Azərbaycan qanunları və beynəlxalq hüququn norma və prinsibləri əsasında cinayətkarlar kimi mühakimə ediləcəklər",- deyə R.Hüseynov diqqətə çatdırıb.

Vurğulayıb ki, Ermənistan təmsilçiləri və onların havadarları məntiqdən, reallıqdan uzaq və qarşılıqlı qəbul edilmiş prinsiplərə zidd olan fitnəkar, saxta düşüncələrdən əl çəkməlidir. Ermənistan xalqının gələcəyindən həqiqətən də, narahat olanlar bilməlidirlər ki, o, xalqın gələcəyi üçün bu gün yalnız bir yol var. O da əməkdaşlıqdır. İki dövlət arasında da bu istiqamətdə artıq müəyyən vacib addımlar atılıb. Buradakı Ermənistan deputatlarının öz dövlətlərinin mövqeyi ilə uyğun gəlməyən davranışları nəyi ehtiva etməsi və haradan qaynaqlanması qaranlıq və anlaşılmazdır. Yəqin özləri bunun səbəbini daha yaxşı bilirlər. Ancaq erməni deputatları xalqlarını və ölkələrini uçuruma aparmaqdan çəkinməlidirlər.

Rafael Hüseynov parlamentarilərə üz tutaraq bildirib ki, Ermənistanın, eləcə də Cənubi Qafqazın xoşbəxt gələcəyinin yeganə düzgün düsturu konstruktiv əməkdaşlıqdır.

# Məsut Özil: "Azərbaycana getmək istəyirəm"



Bütün Azərbaycana salam olsun. Qismət olarsa, Azərbaycana getmək istəyirəm. Bunu İstanbulun "Fənərbağça" klubunun yeni transferi Məsut Özil komandası ilə müqavilənin imzalanması mərasimində deyib.

İdman Araşdırmalar Mərkəzinin (İAM) keçirdiyi sorğunun nəticəsində Azərbaycanda "İlin döyüşkən legioneri" seçilən yarımmüdafiəçi "Fənərbağça" klubunun Azərbaycandakı azarkeşlərinə müraciət edərək ölkəmizə gəlmək arzusunu dilə gətirib: "Hər kəsə təşəkkür edirəm. Qismət olarsa, Azərbaycana getmək istəyirəm. Təkcə oradakı fənərbağçalılara deyil, bütün Azərbaycana salam göndərirəm". Qeyd edək ki, Məsud Özil "Fənərbağça" klubu ilə 3,5 illik müddətə müqavilə imzalayıb.

# Hendrik Daems: Azərbaycanı Avropa Şurasına üzv olmasının 20 illiyi münasibətilə təbrik edirəm



Azərbaycan artıq 20 ildir ki, Avropa Şurasının üzvüdür. Bu, çox əlamətdar hadisədir. Bu müddət ərzində yaxşı dostlar qazanmışıq. Azərbaycanın Avropa Şurasına üzvlüyünün 20 illiyi münasibətilə azərbaycanlı dostlarımızla görüşəcək, ötən illər ərzində fəaliyyətimizdən danışacaq və fikirlərimizi bölüşəcəyik. Bu fikirləri Avropa Şurası Parlament Assambleyasının prezidenti Hendrik Daems AZƏRTAC-a müsahibəsində deyib.

AŞPA-nın prezidenti rəhbərlik etdiyi quruma ölkəmizin 20 illik üzvlüyünü yüksək qiymətləndirib. Azərbaycanın 20 illik üzvlüyünü yüksək dəyərləndirən AŞPA-nın prezidenti bu münasibətlə xalqımızı təbrik edib.

# Azərbaycan qadını Vətən müharibəsində...



Ruhi Əliyeva, YAP Qadınlar Şurasının üzvi, iş xanımı

Qadına olan sevgi ilk olaraq anadan başlayır və bu sevgi böyüyərək ümumilikdə bütün insanlığı əhatə edir. Öz varlığı ilə cəmiyyətə sevgi bəxş edən, özündə mərhəmət, ləyaqət, ismət və sədaqət sözlərini ehtiva edən Qadın adı nə qədər ülvi olsa da, Azərbaycan Qadını adı bir o qədər də dərin məna və əhəmiyyət kəsb edir. Bəli, Azərbaycan Qadını adı dünyada movcud olan adlar arasında ən yüksəyidir.

Adi günlərdə özünü həyat yoldaşına, uşaqlarına və ev işlərinə sərf edən Azərbaycan qadını tale yüklü bütün məsələlərin həllində və müharibələrdə tam fərqli və xarizmatik obraz nümayiş etdirib. Bu, Azərbaycan qadınının qəhrəman və igidlik obrazıdır. Hər bir uğurlu kişinin arxasında güclü bir qadının olması barədə ifadə boşuna deyilməyib. Bu qadın həyat yoldaşı, bacı və nəhayət qayğıkeş ana ola bilər. 44 günlük Vətən müharibəsində şücaət, igidlik göstərən əsgər və zabitlərimizin anası da məhz Azərbaycan qadınıdır. Analarının onlara verdiyi sevgi hərbçilərdə Vətən sevgisini yaradan birinci və ən əhəmiyyətli amildir.

Əzəli torpağımız olan Qarabağda qısa müddət davam edən döyüşlərdə Azərbaycan qadını əsgərlərimizin yanında oldu, gecə-gündüz onlar üçün dualar etdi. Yaralı əsgərlərimizə tibbi yardım göstərən həkim qadınlarımız hər bir əsgərimizə öz övladı kimi baxdı, onu əzizləyib qayğısına qaldı, başına sığal çəkdi. Bəzi qadınlarımız cəbhəyə öz əlləri ilə hazırladığı yeməkləri, ədviyyatları, evində olan isti paltarları göndərdi. Hətta cəbhədə heç bir qohumu olmayan qadınlar belə bu cür addımlar atırdılar. Cəbhədə olan hər bir əsgər və zabit Azərbaycan Qadınının doğması sayılırdı.

Azərbaycan qadının siması olan ölkənin birinci xanımı Mehriban xanım Əliyevanın müharibənin ilk günlərində Silahlı Qüvvələrin Baş Hərbi Hospitalında yaralı qazilərimizi ziyarət edərkən kövrəlməsi və gözlərindən axan yaş bütün dünyaya və insanlığa bir sevgi mesajı idi. Mehriban xanımın nurlu simasından süzülüb yerə düşən bir neçə damcı bütün Azərbaycan Qadınlarının göz yaşları idi, sadəcə bu göz yaşları ümumiləşib Mehriban xanımın gözlərindən axırdı. Diplomatik və cəsarətli Azərbaycan qadınının öz əsgərinə olan sevgisi bütün ülvi hisslərdən öndə idi.

Həmin dövrdə isə cinayətkar Ermənistan dövlətinin birinci xanımı Anna Akopyan əlinə silah götürərək guya hərbi təlimlərə qatılaraq qadınlardan ibarət dəstələr yaradırdı. Özünü bütün dünyaya biabır edən əri Paşinyan kimi nə etdiyini bilməyən Annanın qadın dəstəsindən sonralar bir xəbər də çıxmadı. Öz əsgəri ilə əl verib görüşməyi özünə yaraşdırmayan Paşinyana həyat yoldaşlığı edən Annanı heç Mehriban xanımla müqayisə də etmirəm, çünki bu müqayisə ədalətsiz və yersiz olar. Sadəcə erməni qadınlarının siması olan Annanın xaraktersizliyini, sevgi və mərhəmət hisslərindən uzaq olmasını bir daha xatırlatmaq istədim. Hər iki ölkənin birinci xanımı öz xalqının qadınlarının təmsilçisidir.

Cəsurluğu ilə nümunə olan, hətta əlinə silah alıb aktiv döyüşlərə qatılmaq istəyən Azərbaycan qadınının bəziləri Vətən müharibəsində həyat yoldaşını, övladını, qardaşını və ya atasını itirdi. Bu məsələdə də, qadınlarımız dünyanı heyran buraxacaq hərəkətlər etdilər. Şəhid olan əzizlərinin nəşini də şərəf və ləyaqətlə qarşıladılar. Təklikdə və içində ağladı Azərbaycan Qadını. Bəzən əzizinin tabutunu yerdən qaldırıb başı üzərində apardı. Həmin anda onun dilində yalnız bu söz vardı: "Təki Vətən sağ olsun". Dünyada ancaq Türk və Azərbaycan qadınının dediyi bu söz vətən üçün qadınlarımızın canından çox sevdiyi doğmalarını qurban verməyə hazır olduğunu göstərdi. Həyat yoldaşları şəhid olan Azərbaycan Qadını dünyada yeganə qadındır ki, o, daim ərinin yasını saxlayacaq, yenidən ailə həyatı qurmayacaq, həmişə onunla olan günlərini xatırlayıb göz yaşı axıdacaq, onunla qürur duyacaq, şəhid xanımıyam deyəcək, sevgisini isə ancaq övladlarına verəcək. Daxilində sevgi, mərhəmət olan Azərbaycan qadınının ürəyi çox böyükdür. Lakin düşmən unutmasın ki, o ürəkdə onlara qarşı qəzəb və nifrətə də yer var. O nifrətin toxumları isə 20-ci əsrin əvvəlində xalqımıza qarşı törədilmiş soyqırımda, daha sonra isə Xocalı faciəsi zamanı fəryadları göylərə qalxmış körpələrin gözlərindən axan yaşla bəslənmişdir. Azərbaycan Qadını dostunu və düşmənini heç vaxt unutmayacaq!

# Xocavənddən bizə baxan cəllad Njde: biz nə etməliyik?







### Qarabağın sülhə hazır olması üçün üçtərəfli bəyanat əsasında oraya yerləşmiş Rusiya sülhməramlıları gündə bir neçə dəfə faşist Njdenin abidəsi qarşısından keçib-gedirlər

Qəbul olunmuş üçtərəfli bəyanatdakı müddəalara və razılaşmalara baxmayaraq, Qarabağda - Rusiya sülhməramlılarının nəzarət etdikləri ərazilərimizdə erməni özbaşınalıqları davam edir. SİA xəbər verir ki, qondarma və quldur "DQR" rejimi hələ də "dövlət" və "güc" strukturları yaradır, özünü "prezident" elan etmiş və axtarışda olan Araik Arutunyan həyasız və sərsəm bəyanatları ilə Azərbaycan xalqında hiddət və qıcıq yaradan çıxışlarını separatçı və terrorçu maraqlarını təbliğ edir.

### Erməni terrorçusunun heykəli sentyabr ayından Xocavənddə qalmaqda davam edir

Digər tərəfdən, sözügedən ərazilərimizdə milli-mədəni və tarixi abidələrimizi dağıdan, tarixi şəxsiyyətlərimizin məzarlarını məhv edərək yer üzündən silən erməni vandalları bu da azmış kimi, dədə-baba torpaqlarımızda erməni faşisti və terrorçusu, erməniləri türklərə qarşı hər gün mübarizə aparmağı vəsiyyət etmiş Qaregin Njdenin abidəsini ucaldırlar. Artıq Xocavənddə həmin abidə mövcuddur. Belə ki, erməni mediasının da yaydığı məlumata görə, Xocavənddə erməni terrorçu Qaregin Ter-Arutyunyanın (Njde) heykəli ikinci Qarabağ müharibəsinə bir neçə ay qalmış - 18 may 2020-ci ildə "Ferzit" inşaat şirkətinin rəhbəri Artur Xaçatryan tərəfindən qoyulub. Heykəl sentyabr ayında tamamilə başa çatdırılıb və pyedestala yerləşdirilib. Lakin müharibə səbəbi ilə heykəlin təntənəli açılış mərasimi təxirə salınıb və heç vaxt keçirilməyib. Yəni erməni terrorçusunun heykəli sentyabr ayından Xocavənddə qalmaqda davam edir.

### Cəlladın heykəlini məhv etmək Qarabağ torpaqlarının əzəli sahiblərinin öhdəsinə düşür!

Lakin maraqlı məqamlardan biri də budur ki, İrəvanda Hitler faşizminə işləmiş Njdeyə abidə ucaldılarkən, Rusiyanın ictimai-siyasi dairələri həmin məsələyə etiraz etmiş, media və TV-lərdə bunun yolverilməz olduğunu, faşizmin təbliğatı olması barədə informasiyalar yer almışdı.

Bu gün isə, Qarabağın sülhə hazır olması üçün üçtərəfli bəyanat əsasında oraya yerləşmiş Rusiya sülhməramlıları gündə bir neçə dəfə faşist Njdenin abidəsi qarşısından keçib-gedirlər. Halbuki, nəinki türklərin, eləcə də digər millətlərin, habelə milyonlarla rusların ölümlərinə səbəb olan Hitler Almaniyasının nökəri Njdenin abidəsinin sökülməsi ilə bağlı, ilk növbədə, rus sülhməramlıları addım atmalı idilər. Yox, əgər onlar bunu hansısa səbəblərdən edə bilmirlərsə, yaxud etməyə gücləri çatmırsa, bu qaniçən cəlladın heykəlini məhv etmək Qarabağ torpaqlarının əzəli sahiblərinin öhdəsinə düşür.

### Njde deyib: "Türklə mübarizə aparılmayan bir gün belə olmamalıdır"

Yeri gəlmişkən, bu gün ermənilər Njdenin vəsiyyətini aşıq-aşkar öz media platformalarında da işıqlandırır, onu şüara çevirirlər. Təkcə ermənilərin yerkramas.org saytının ana səhifəsinə nəzər salarkən, biz orada erməni faşistinin kəlamının yer aldığını görmüş olarıq. Həmin kəlamda deyilir: "Türklə mübarizə aparılmayan bir gün belə olmamalıdır"...

Biz isə ümid edirik - hələ də Qarabağda qalmış terrorçu və separatçı tör-töküntülərin birdəfəlik rədd edilmələri ilə yanaşı, cəllad-qaniçən Njdenin heykəlinin də məhv edilməsi prosesi qısa zamanda icra olunmalıdır. Əks halda, mənfur düşmənin ayağı yer almaqda davam edəcək, hansı ki, bu ayaqları oradan kəsmək, yığışdırmaq bizlərin mənəvi, hüquqi və millət borcumuzdur və bu fakta etinasız yanaşmağa bizlərdən heç kimin mənəvi hüququ yoxdur!

*Rövşən RƏSULOV*

**P.S.** *Nitşe deyib: böyük problemlər kiçik etinasızlıqlardan başlayır...*

# "Azərbaycan regional əməkdaşlığın lokomotivinə çevrilib"



"Azərbaycan regionda regional əməkdaşlığın lokomotivinə çevrilib. Qonşu ölkələrlə ikitərəfli və üçtərəfli formatlarda əməkdaşlıq edirik. Torpaqlarımızın işğaldan azad olunması regionda yeni reallıq yaradıb. Bu reallıq əməkdaşlığın yeni formatlarını aktuallaşdırır. İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin ölkəmizə səfəri zamanı qeyd edib ki, 5+1 formatını da mümkün hesab edirəm. Bu əməkdaşlıq formatının yaranması Ermənistanın özünü necə aparmasından asılıdır. Əgər Ermənistan özünün saxta iddialarından əl çəkərək səmimi qonşu kimi ölkəmizlə əməkdaşlıq etmək istəsə, bu, regiona davamlı sülh gətirər və 5+1 formatında yeni əməkdaşlıq imkanına nail olunar. Blokada şəraitində olan Ermənistan üçün region ölkələri ilə əməkdaşlığa hər bir platforma hava və su kimi vacibdir. Ona görə də Ermənistanın rəhbərliyi ölkəsinin yeni gələcəyinə qonşuluq münasibətlərinin inkişafını prioritet hesab etməklə öz siyasətini qurmalıdır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Azər Badamov deyib.

Deputat bildirib ki, İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin ölkəmizə səfərini Azərbaycanın qonşu ölkələri ilə dostluq və yaxın qonşuluq əlaqələrinin möhkəmlənməsinin göstəricisi hesab edirəm. "İran Azərbaycana həm dost, həm də yaxın qonşudur. Ölkələrimiz arasında siyasi, iqtisadi, tranzit və enerji sahəsində əməkdaşlıq imkanlarının perspektivdə inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. İranla birgə həyata keçirdiyimiz Cənub-Şimal nəqliyyat dəhlizinin tikintisi tam başa çatmasa da, bu istiqamətdə daşınan yüklərin həcmi 20% artıb. Yeni çəkiləcək Mehri dəhlizindən istifadə edilməsində də perspektiv imkanlar böyükdür. Həm də Araz çayı üzərində yeni körpünün, su hövzələrinin və elektrik stansiyalarının tikilməsi ilə bağlı razılaşmalar imzalanıb".

A.Badamov qeyd edib ki, bu layihələrin həyata keçməsi ölkələrimiz üçün iqtisadi fayda gətirəcək: "İran Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bizə dost münasibət sərgiləyir. Ölkə başçımız cənab İlham Əliyev Vətən müharibəsində bizim yanımızda olaraq dost münasibətini bildirən ölkələrin şirkətlərini işğaldan azad olunmuş ərazilərimizdə investisiya yatırmaq üçün dəvət edib. İran da bizə dost və qonşu ölkə olduğundan ölkə başçımız İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifə şirkətlərinin də həmin ərazilərimizdə quruculuq və inkişaf etdirilmə işlərində yaxından iştirak edə biləcəklərini bildirib. İran şirkətlərinin aqrar və sənaye sahələrinə investisiya yatırmaq imkanları genişdir və düşünürəm ki, yaxın gələcəkdə bu işlərin icra olunmasında iştirak edəcəyini düşünürəm. İşğaldan azad olunmuş ərazilərimiz yeni reallığa uyğun olaraq dost ölkələrimizin fəaliyyət göstərə biləcəyi yeni platforma kimi özünü təqdim edir. Bu da regionda sülhü və təhlükəsizliyi uzun müddətli və davamlı edəcəkdir".

*Aysel Məmmədova*

# Meksika qəzeti: “Ermənistan qonşularına qarşı təcavüzkar siyasətindən və ərazi iddialarından əl çəkməlidir”

***Meksikanın nüfuzlu mətbu orqanlarından olan “El Universal” qəzetində Azərbaycanın bu ölkədəki səfiri Məmməd Talıbovun “Azərbaycan və sülh” sərlövhəli məqaləsi dərc edilib.***

AZƏRTAC xəbər verir ki, həmin qəzetdə fransız əsilli meksikalı jurnalistin Azərbaycan və Türkiyə haqqında qərəzli yazısına cavab olaraq hazırlanmış məqalədə M.Talıbov Qarabağın Azərbaycan xanlıqları, bu bölgənin tarixən Azərbaycanın tərkibində olması, XIX əsrdə ermənilərin həmin ərazilərə köçürülməsi, Zəngəzur bölgəsinin sovet rəhbərliyi tərəfindən Ermənistana bağışlanması, erməni təcavüzünün tarixi, münaqişə ərzində Ermənistan tərəfinin törətdiyi insanlıq əleyhinə cinayətlər və münaqişənin beynəlxalq hüquqi aspektləri barədə məlumat verib.

BMT Təhlükəsizlik Şurası tərəfindən münaqişə ilə əlaqədar qəbul edilmiş qətnamələrə son 30 ilə ərzində Ermənistan tərəfindən məhəl qoyulmadığını deyən səfir bu sənədlərin növbəti erməni təxribatı nəticəsində başlanmış 44 günlük müharibə zamanı hərbi-siyasi yolla öz icrasını tapdığını, azad olunmuş şəhərlərimizin işğalçılar tərəfindən dağıdıldığını və burada ölkəmizə aid tarixi-mədəni irsin məhv edildiyini bildirib.




Qondarma “erməni soyqırımı” ilə Holokost arasında paralellərin aparılması, habelə İsrailin Azərbaycana yardım etməsi ilə bağlı arqumentlərə münasibətdə diplomat Azərbaycanın İsrail dövləti və yəhudi xalqı ilə yaxın münasibətlərinin olduğunu, ölkəmizin ümumiyyətlə bütün dünyada çoxmədəniyyətlilik məkanı kimi tanındığını, burada yəhudi, erməni, gürcü, rus və 40-a yaxın müxtəlif etnik mənsubiyyətə malik xalqların nümayəndələrinin əsrlərboyu sülh içində birgə yaşadığını, Roma papası Fransiskin ölkəmizə səfəri zamanı Azərbaycanı tolerantlıq modeli adlandırdığını qeyd edib. Diplomat erməni işğalçılarına qarşı mübarizədə şəhid olmuş yəhudi əsilli Milli Qəhrəman Albert Aqarunovun Bakıda abidəsinin ucaldılması ilə Holokostun birbaşa iştirakçısı olmuş, nasistlərlə əməkdaşlıq edən Qaregin Njdeyə Ermənistan paytaxtında heykəl qoyulması arasında ziddiyyətə diqqət çəkib.

Bildirilib ki, Türkiyə, Pakistan, İsrail, Ukrayna və digər ölkələr Qarabağ münaqişəsində beynəlxalq hüququ və beləliklə, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib.

Sonda Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin 11 yanvar bəyanatının bölgədə kommunikasiya və nəqliyyat infrastrukturunun bərpasını nəzərdə tutduğu, iki ölkə arasında davamlı sülhün yaradılmasının regionun bütün xalqlarına fayda gətirəcəyi bildirilib. Bunun üçün Ermənistanın qonşularına qarşı təcavüzkar siyasətindən və ərazi iddialarından əl çəkməsinin, bu ölkənin dostlarının rəsmi Yerevanı daha da qızışdırmaq əvəzinə, onu barışığa səsləməsinin vacibliyi diqqətə çatdırılıb.

# ASALA-nın qayıdışı işğalçı ölkəyə intihar vəd edir

*Cənubi Qafqazda dəyişmiş reallıqları qəbul etməyən və etmək istəməyən dünya erməniliyi Ermənistanı uçuruma sövq edir*

“Ermənistanın Azadlığı Uğrunda Gizli Erməni Ordusu” (Armenian Secret Army for the Liberation of Armenia, ASALA) son illər guya əməl etdiyi “taktiki fasilə”yə son qoyduğunu və aktiv fəaliyyətə başlayacağını bəyan edib. Terror qruplaşması bir neçə gün öncə bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir: “Ümid edirdik ki, güclü dövlətçiliyi olacaq Ermənistan ümumerməni maraqlarının ən başlıca və əvəzolunmaz dayağı ilə təminatçısı olacaqdı. Lakin indi Ermənistanın müstəqilliyinin zəifləməsini və suverenliyinin məhdudlaşmasını nəzərə alaraq yürütdüyümüz siyasətə yenidən baxmaq məcburiyyətindəyik. Xüsusilə də taktiki fasiləyə son qoymaq, ümumerməni maraqlarının müdafiəsi uğrunda tarixi missiyaya uyğun olaraq müasir geosiyasi reallıqlara və qüvvələr balansına əsaslanan yeni məntiqli hərəkətlər strategiyasını hazırlamaq niyyətindədir. Bu açıqlama ilk öncə özlərini müttəfiq və dost adlandıranlara, sonra isə düşmənlərə ünvanlanıb”.




1975-ci ildə yaradılan və 1990-cı illərin əvvəllərinədək aktiv fəaliyyət göstərən ASALA erməni terror təşkilatı 1980-ci illərdə ABŞ Dövlət Departamentinin hazırladığı terrorçu təşkilatlar siyahısına daxil edilib. ASALA-nın hücumları və teraktları nəticəsində 46 nəfər həlak olub, 299 nəfər yaralanıb. Erməni terrorçuların əsas hədəfləri həmişə Türkiyə və Azərbaycan vətəndaşları olub. Təşkilat “Əbu Nidal”, “Qara sentyabr” kimi terror qrupları ilə əməkdaşlıq etməsində əsas fiqurlardan biri ASALA-nın lideri Akop Akopyan olmuşdur. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş A. Akopyan (“Mücahid”) 01.08.80-ci ildə “Nyu-York Times” qəzetinə verdiyi müsahibədə bildirmişdir: “Bizim düşmənimiz türk rejimi, NATO və bizlə əməkdaşlıq etməyən ermənilərdir”. 28.04.1988-ci ildə A. Akopyan Afina şəhərində öldürülmüşdür. Livanda 1980-ci ilin aprelində ASALA birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini rəsmiləşdirmişlər. Beyrut şəhərində 28.08.1993-cü ildə açıqlanan bəyanatında ASALA “pantürkist neft borusu” (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdi.

ASALA-nın bəyanatlarına görə, terrorçuların əsas məqsədləri Türkiyəni qondarma “erməni soyqırımı”nı tanımağa, ermənilərə reparasiyalar ödəməyə və “tarixi Ermənistan” adlandırdıqları, Türkiyənin şimal-şərq əyalətlərini Ermənistana “verməyə” vadar etməkdir. Ermənilər həmin əraziləri “Vilson Ermənistanı” adlandırırlar. Belə ki, 1920-ci ildə ABŞ prezidenti Vudro Vilsan ratifikasiya edilməmiş Sevr müqaviləsinə “istinad” edərək o əraziləri Ermənistana vəd etmişdi. Əvvəllər marksist-leninçi mövqedə duran ASALA indi aşkar irqçilik və aqressiv şovinizm mövqeyindədir. Sosial şəbəkələrdə ermənilər ASALA-nın “qayıdışı”na sevindiklərini izhar ediblər.

“Ermənistan ordusuna inanıram. Başqa yolumuz yoxdur - əldən verilən torpaqları geri almalıyıq. Etnik təmizləmə aparsaq belə. Yeni ASALA gəlməlidir. Bizi öldürəndə susan və laqeyd qalan ölkələr bu dəfə qorxu içində yaşayacaqlar”, - ermənilər terrorçuların bəyanatına cavab olaraq yazırlar.

1970-1980-ci illərdə dünyanın bir sıra ölkələrində terror aktlarını həyata keçirən ASALA, əslində erməniliyin terror mentalitetinə əsaslanır. O mentalitet isə dəyişməyib. ASALA-nın hədələrinə gəldikdə isə bu qruplaşma “qayıdış”ını bəyan etsə belə, onun sonu çox tez çatacaq. İstənilən terror təşkilatı kimi, bu zəif qrup da sadəcə bölgə dövlətlərinin yox, Qərbin də hədəfində olacaq. Cənubi Qafqazda dəyişmiş reallıqları qəbul etməyən və etmək istəməyən dünya erməniliyi Ermənistanı uçuruma sövq edir. Çünki ASALA ən kiçik terror aktı törədərsə, alacağı cavab həddən artıq ağır olacaq. Terrorçular məhv edilməlidir - harada, kimlər olmalarının fərqi yoxdur. ASALA isə belə bir bəyanat yaymaqla özünə ölüm hökmü imzalayıb. Sadəcə, olduqlarından “qüdrətli” görünməyə çalışan bir dəstə erməni bunu hələ anlamır.

***Sevinc Azadi***

# Ayk Naqapetyan:”Ermənistan sərhədlərinin qorunması Rusiyaya tapşırılmalıdır”




Xatırladaq ki, Ermənistanda hər ilin 28 yanvarı ordu günü kimi qeyd edilir. Bəli, “müzəffər və məğlubedilməz” erməni ordusu günü. Təbii ki, tarixə baş vursaq, erməni saxtakarlığının kökünü qədimlərdə axtapmış olacağıq. Sirr deyil ki, əli qələm tutan əksər ermənilər yalan dolu tarix yaratmağa çalışıblar. Elə onların erməni ordusu barədə dedikləri bu qəbildən idi ki, artıq tarixin zibilliyinə atıldı. Maraqlıdır, ermənilərin dünənə qədər “müzəffər, məğlubedilməz” ordu kimi təqdim etdikləri erməni ordusu ilə bağlı, görən bu gün ermənilərin özləri nə düşünürlər.

SİA erməni hərbi-siyasi analitik Ayk Naqapetyanın yerli KİV-lərə verdiyi açıqlamasına diqqət çəkib: “Məğlub olan bir ordumuz var - istər hərbi texnika ilə təchiz olunma baxımından, istərsə də heyətindəki bir sıra dəyişikliklər baxımından”. Əslində, bu, etirafdır. Dünənə qədər özündənrazı, müşdəbeh bir xalq nümayəndəsinin, “güclü erməni ordusu” təbliğatçısının etirafı.

Amma bu gün erməni ordusunun, hətta dövlət sərhədlərini belə qorumaq iqtidarında belə olmadığını gizlətməyən Naqapetyan bütün baş verənlərin günahkarı kimi, yenə də erməni səlahiyyətlilərini görür. Onun fikrincə, bu gün ölkəsinin bütün sahələrində, hətta sosial sahəsində belə tam bir xaos hökm sürməkdədir. Naqapetyana görə, hazırda Ermənistanda gerçəklik insanlara təhrif olunmuş şəkildə təqdim olunur: “... Ölkədə gələcəyə inamsızlıq yenidən baş qaldırmaqdadır. Məncə, bu gün Ermənistanda yaşayanların əksəriyyəti ölkədən qaçmaq üçün imkan axtarırlar. Təbii ki, koronavirusla bağlı sərhədlərin qapalı saxlanılması, hələ ki, buna imkan vermir. Amma mən sərhədlərin açılacağı təqdirdə ermənilərin yenidən ölkədən köç edəcəklərini elə də istisna etmirəm.”

Bir müddət bundan əvvəl Azərbaycan rəhbərinin Zəngəzur, Sevan və İrəvanın əzəli Azərbaycanın ərazisi olduğunu söyləyərkən, Ermənistanda çoxlarının bunu yüngül və qaşqabaqla qəbul etdiklərini xatırladan erməni ekspert bu gün bu torpaqların geri alına bilməsini də istisna etmir. Ona görə də Naqapetyan Ermənistanın bütün sərhədlərinin qorunmasını hərbi-siyasi müttəfiqi Rusiyaya həvalə etməyi və ölkədə daha bir neçə yeni rus hərbi bazasının yaradılmasını təklif edir.

***Ağasəf Babayev***

# Ermənistanda kukla rejimi formalaşır?



Paşinyanın son təyinatlarına diqqət çəkən erməni mətbuatı bütün bunları baş nazirin Ermənistanda dövlət idarəetmə sistemini gücləndirməyə deyil, sadəcə olaraq, öz hakimiyyətini gücləndirməyə hesablandığını yazır.SİA həmin mənbəyə istinadən xəbər verir ki, ermənilər Paşinyan hökumətinin hazırkı təyinatlarını onun ölkədə kukla rejimi formalaşdırmağa hesablandığından xəbər verdiyini iddia edirlər. Qeyd edək ki, ermənilər bunu, daha çox, peşəkar iş üçün lazımi xüsusiyyətlərə sahib olmayan insanların dövlət vəzifələrinə təyin edilməsi ilə əlaqələndirirlər. Təbii ki, Ermənistanın bugünkü mövcudluğu, həmişə olduğu kimi, indi də Rusiyadan asılıdır. Əslində, bu əksər ermənilər tərəfindən qəbul edilsə də, lakin onlara yer edən erməni rəhbərliyinin Azərbaycanın maraqlarına cavab verən siyasət yürütməsidir(?).

Maraqlıdır ki, erməni ziyalıları ilə yanaşı, hətta sadə ermənilər belə son iki Moskva - həm 9 noyabr, həm də 11 yanvar danışıqları zamanı gündəlikləri, məhz Azərbaycan Prezidentinin diktəsi ilə keçirildiyini etiraf etmək zorunda qalıblar. O da maraqlıdır ki, əksər erməni siyasətçiləri Paşinyanın son təyinatındakı dövlət rəsmilərinin də, Azərbaycanın diktəsi altında hərəkət edəcəklərinə şübhə etmirlər. Onların qənaətinə görə, özünü əxlaqi prinsiplərdən məhrum edən Paşinyan, eyni keyfiyyətlərə sahib insanları komandasına cəlb edir.

# Mədəni irsin məhv edilməsi insanlığa qəsddir

***Arxeoloji və memarlıq abidələrinin tədqiqi göstərir ki, bəşər sivilizasiyasının inkişafında Azərbaycan xalqının böyük xidmətləri olmuşdur. Hər bir xalqın tarixi abidələri dünya mədəni irsinin ayrılmaz hissəsi kimi qəbul edilmişdir. Bu səbəbdən də maddi mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyətli işdir.***



Təsadüfi deyildir ki, tarix və mədəniyyət abidələrinin mühafizəsi, bununla da insanların mədəni hüquqlarının təmini təkcə aid olduğu ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzimlənir. 16 dekabr 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 14 may 1954-cü il tarixli "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16 noyabr 1972-ci il tarixli UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir. Azərbaycan dövləti də mədəni abidələrin mühafizəsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur. Tarix və mədəniyyət abidələrimiz göründüyü kimi, beynəlxalq qanunlarla toxunulmazlıq statusuna malikdir. Çox təəssüf ki, xalqımıza məxsus maddi mədəniyyət nümunələrinin ermənilər tərəfindən sistematik olaraq dağıdılması prosesi hələ ötən əsrin əvvəllərindən başlanmışdı. Qədim Azərbaycan şəhəri İrəvanda və Dağlıq Qarabağ ərazisində ermənilər azərbaycanlılara məxsus yüzlərlə maddi və mədəni abidələrini dağıdaraq tarixin yaddaşından silmişlər.

Nə qədər böyük cinayət olsa da beynəlxalq təşkilatlar tərəfindən bu abidələrin taleyinə laqeydlik göstərilmişdir. Halbuki dağıdılan o mədəni, tarixi, dini abidələr ilk növbədə xalqımızın yaddaşının, müdrikliyinin daşıyıcısı olub. Məlumdur ki, hər bir mədəni abidə vətənə, yurda bağlılıq, sadiqlik hissləri aşılayır, insanın əcdadlarına, keçmiş köklərinə olan məhəbbətini gücləndirir.

Mənfur qonşularımız da 30 ilə yaxın işğal altında saxladıqları torpaqlarımızda maddi və mənəvi dəyərlərimizi yerlə-yeksan etməklə milli kimliyimizi unutmağımızı, mədəniyyətimizlə dərin bağları olan tarixi yaddaşımıza silinməz yaralar vurmağı qarşılarına məqsəd qoymuşdular. Bu gün müzəffər ordumuzun işğaldan azad etdiyi rayonlarımızda, Şuşa şəhərində Azərbaycanın tarixi abidələrinə erməni faşistlərinin vəhşi münasibəti özünü daha qabarıq şəkildə göstərir. Dövlət başçısı İlham Əliyev çıxışlarında Ermənistanın qəsb etdiyi torpaqlarımızda müsəlman dini abidələrinə qarşı soyqırımı törətdiyini və erməni işğalçılarının məscidlərə qarşı təhqiramiz hərəkətlər etdiyini dəfələlə qeyd edib: "İşğal edilmiş torpaqlarımızda Ermənistan rəhbərliyinin göstərişi ilə bütün məscidlərimiz dağıdılıb. Şuşa, Ağdam və digər şəhərlərimizin dağıdılmış məscidlərinin fotoşəkilləri erməni vandalizminin sənədli sübutudur."

Qarabağda təkcə İslam mədəniyyətinə aid abidələrimiz deyil, digər abidələr də məhv edilib. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları düşmənlər tərəfindən hərbi məqsədlər üçün istifadə edilərək qəsdən dağıdılıb. Xocalı, Ağdam, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Aparılan ilkin monitorinqlər zamanı 50 - dən çox tarix-mədəniyyət abidəsinə, tarixi, memarlıq və arxeoloji əlamət daşıyan obyektə, o cümlədən Xocavənd rayonunun Hadrut qəsəbəsində Alban məbədinə (1170-ci il), Zəngilan rayonunun Əmirxanlı kəndində Qız qalasına (XII əsr), Məmmədbəyli kəndində Səkkizguşəli türbəyə (1304-1305-ci illər), Füzuli rayonunun Qarğabazar kəndində karvansaraya (XVII əsr) baxış keçirilmişdir. 30 -a yaxın abidənin işğalçılar tərəfindən tamamilə dağıdıldığı və yalnız qalıqlarının olduğu aşkar edilib.

Təkcə Şuşa şəhərində erməni vandalları 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evini dağıtmış, viran etmişdir. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialının, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək eksponatı, Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin (300-dən çox əşya), Azərbaycan vokal sənətinin əsasını qoymuş böyük müğənni Bülbülün (400-dək əşya), görkəmli musiqiçi və rəssam Mir Mövsüm Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin, Ağdam Tarix-Diyarşünaslıq Muzeyinin (2 mindən çox əşya), Qubadlı tarix-diyarşünaslıq muzeyinin (3 mindən çox əşya), Zəngilan Tarix-Diyarşünaslıq Muzeyinin (6 minədək əşya) fondları qarət edilmişdir.

Bu gün işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycanın mədəni irsinin daha dərin tədqiqi üçün imkan açılıb. Artıq Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə işlərə başlanılıb. Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihələri həyata keçirməyə başlayır. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, Qarabağ bölgəsi Azərbaycanın ən gözəl bölgələrindən birinə çevriləcək, burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq: "Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!"

***N.Muğanlı***

# Ombudsman Metsamor AES-lə bağlı beynəlxalq təşkilatlara müraciət etdi

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyevanın (Ombudsman) Metsamor AES-in bütün bölgə üçün potensial təhlükəsi barədə bəyanat yayıb.***

SİA xəbər verir ki, bəyanatda deyilir: "Bu yaxınlarda Ermənistan Parlamentində Metsamor AES-in radioaktiv tullantılarının hərbi məqsədlər üçün istifadəsi ilə bağlı aparılan müzakirələr bizi ciddi narahat edir. Parlamentin Regional məsələlər və Avrasiya İnteqrasiyası daimi komitəsinin iclasında Ermənistanın Ərazi idarəetmə və infrastruktur nazirinin müavini Metsamor AES-də xeyli miqdarda radioaktiv tullantı, həmçinin "sənaye tullantıları" kimi təsnif olunmayan radioaktiv yanacaq istehsal etdiyini söyləyib.

Bundan əlavə, Ermənistanın 30 ilədək müddətdə işğal altında saxladığı Azərbaycan ərazilərini radioaktiv şəkildə çirkləndirməsindən də narahatlıq hissi keçiririk. Azərbaycan Milli Elmlər Akademiyası Geologiya və Geofizika İnstitutu təsdiq edir ki, Metsamor AES-in tullantıları Azərbaycanın Ağdərə və Kəlbəcər rayonlarının ərazisində basdırılması ilə bağlı məlumatlar mövcuddur.

Müddəti bitmiş Metsamor AES yalnız Azərbaycan və Ermənistanın özü üçün deyil, həm də bütün bölgə üçün ciddi təhlükədir. Bundan əlavə, Cənubi Qafqazın zəlzələyə meyilli bölgəsində yerləşməsi onun fəaliyyətini daha da təhlükəli edir. AES-in ətrafında 5 tektonik qırılma var ki, bunlardan biri də stansiyadan cəmi 500 metr uzaqlıqdadır. Beləliklə, bölgənin bütün ölkələri Çernobıl və Yaponiyanın Fukuşima Atom Elektrik Stansiyalarının aqibətini yaşamaq təhlükəsi ilə üz-üzədirlər.



Bir sıra beynəlxalq təşkilatlar da Metsamor AES ilə bağlı narahatlıqlarını vurğulayıblar. 2017-ci ildə Avropa İttifaqının Komissiyasının vitse-prezidenti Federica Mogherini sözlərinə görə: "Aİ Metsamor Nüvə Elektrik Stansiyasının (MNPP) yaratdığı risklərdən tam xəbərdardır. Bu səbəbdən, MNPP-nin sürətli bir şəkildə bağlanması və istismardan çıxarılması Aİ və Avropa Qonşuluq Siyasəti Fəaliyyət Planı üçün əsas hədəf olaraq qalır. Çünki bu elektrik stansiyası beynəlxalq səviyyədə tanınmış nüvə təhlükəsizliyi standartlarına cavab verəcək şəkildə təkmilləşdirilə bilməz."

Ancaq belə görünür ki, Ermənistan stansiyanı bağlamağı planlaşdırmır, əksinə onun fəaliyyəti 2026-cı ilə və ondan sonrakı müddətə uzadılıb. Metsamor AES-in yarada biləcəyi bütün təhlükələri nəzərə alaraq, Çernobıl və Fukuşimaya bənzər növbəti fəlakətin qarşısını almaq üçün bütün müvafiq beynəlxalq təşkilatları stansiyanın təcili olaraq bağlanması, işinin təhlükəsiz şəkildə dayandırılması və radioaktiv tullantıların Beynəlxalq Atom Enerjisi Agentliyinin "İstifadə olunan Yanacaq İdarəetməsinin Təhlükəsizliyi və Radioaktiv Tullantıların İdarə Edilməsi Təhlükəsizliyi" haqqında Birgə Konvensiyasının, habelə AŞPA-nın 1588 saylı qətnaməsinin (2007) müəyyən etdiyi tələblərlə uyğun şəkildə ciddi beynəlxalq nəzarət altına alınması üçün təcili tədbirlər görməyə çağırıram".

# ŞOK: Koronavirusu bir dəqiqədə öldürən sprey hazırlandı!



Türk elm adamları bir dəqiqə ərzində koronavirusu öldürən bir sprey hazırlayıblar. SİA xəbər verir ki, bu barədə "Daily Sabah" qəzeti məlumat dərc edib.

Məlumatda qeyd olunur ki, Türkiyənin Bursa şəhərindəki "Uludağ Universiteti"nin Mikrobiologiya Bölümü əməkdaşları, koronavirusu bir dəqiqə içində öldürə biləcəyini iddia olunan bir burun spreyi hazırlayıblar.

Virusu tamamilə öldürən "Genoxyn" spreyi Professor Şehimə Gülsün Temel və Doktorlar Əhməd Ümid Sabancı və Güneyit Özeki tərəfindən hazırlanıb.

Doktor Sabancı, araşdırmaların koronavirus pandemiyasından əvvəl başladığını söyləyib. "Biz dərmanın antibakterial fəaliyyətə malik olduğunu göstərdik və pandemiya baş verdikdən sonra COVID-19 ilə mübarizəyə töhfə verəcəyimizi düşündük. Araşdırmamız spreyin virusu ağız və burun toxumalarında öldürdüyünü göstərdi. Bu sprey virusun yayılmasının qarşısını alan və sayını azaldandır", deyə Əhməd Ümid Sabancı izah edib.

Professor Təməl isə öz növbəsində qeyd edib ki, sprey koronavirusu bir dəqiqə ərzində selikli qişadakı epiteliya hüceyrələrinə zərər vermədən məhv edir.

"Üstəlik, bunun hüceyrələrə şəfa verdiyini də göstərdik. Buna görə də təhlükəsiz istifadə edilə bilər", deyə professor təsdiqləyib. Alimlər spreyin yalnız COVID-19-a qarşı deyil, həm də müxtəlif bakteriya və göbələklərə qarşı yüksək effektiv təsir göstərdiyini iddia edirlər.

***İnam Hacıyev***

# Bir kəndin on igidindən biri haqqında



*Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda gedən Vətən Müharibəsi hələ uzun illər böyük-böyük söhbətlərin, tədbirlərin baş mövzusu olacaq, hərbi ekspertlər, tanınmış siyasətçilər tərəfindən müxtəlif fikirlər söylənilləcək. Söz yoxki, sağlam düşüncəli insanlar Azərbaycanın öz torpaqlarını azad etmək üçün apardığı müharibəni həmişə xeyrin şər üzərində qələbəsi kimi dəyərləndirib, dəstəkləyəcəklər.*

Şərur rayonunun Çomaxtur kəndi də 44 günlük ikinci Qarabağ savaşına bütün Azərbaycan xalqı kimi öz töhfəsini verdi. 17 oktyabrından 1 dekabra kimi müharibənin davam etdiyi 44 gün müddətində cəbhədə döyüşdü. Kəndən cəbhəyə yollanan on igiddən dördü şəhidlik zirvəsinə ucaldı. Onlar balaca kənddə doğulsalarda böyük Azərbaycanın, ümumilikdə dünya azərbaycanılarının, türk dünyasının qürur mənbəyinə çevrildilər. Rəyon mərkəzindəki şəhidlər xiyabanında uyuyan bu igidlər həmişə yad edilir və heç vaxt yaddan çıxa bilməz. Torpaqlarımızın yağı düşməndən azad edən altı digər həmkəndlimiz qalib kimi ailələrinin yanına qayıtdılar. İgidlərdən biri də ailənin tək oğlu olan Əlisoy Cavanşir Məhəmmədəli oğludur.

Evlərinin yaxınlığında olan hərbi hissənin əsgərlərinin hərəkətlərinə, paltarlarına həmişə həsəd aparıb. Böyüyəndə səliqə ilə geyinmiş həmin əsgərlərdən biri olmaq, döyüşmək və qalib gəlmək fikri ondan əl çəkməmişdir. Nəhayət böyüyb orta məktəbi bitirdi, əsgəri hərbi xidmətə sevinclə yollandı. Hərbi xidmətdən sonra silahlı qüvvələrdə xidmət etməyi qarşısına məqsəd qoydu. 2020-ci ilin yanvarından ərizə ilə xidmətə başladı. Arzusu müddətdən artıq hərbi qulluqçu kimi orduda xidmət etmək idi ki, bu arzusu da nəhayət yerinə yetdi. Müharibə başlananda öz komandirindən xahiş etdi ki, ona birincilər sırasında cəbhəyə yollasınlar. Hərbi hissə rəhbərliyində bilirdilər ki, Cavanşir kimi igid, qeyrətli oğlanlara ehtiyac böyükdür. Oktyabrın 19-də ilk döyüşü Füzuli uğrunda gedən döyüşlər oldu. Cavanşir öz xatirələrini dilə gətirərək döyüş yoldaşları haqqında elə fəxarətlə danışır ki, maraqla qulaq asmaya bilmirsən.



Cavanşirin dediklərindən: "Mən Naxçavandan gələndən sonra yoldaşlarımdan ayırdılar. Həmkəndlim Muradla birlikdə başqa bir Tabora düşdük. İstər Murad, istərsə də mən cəsarətimizlə, qorxmazlığımızla tabor komandirimiz Göyçə Qurbanovun, onun müavini kapitan Bağırlının nəzərini cəlb etmişdik. Bütün döyüşlərdə 16 nəfərlik qrupp şəkilində fəaliyyət ggöstərirdik. Məktəbdə, əsgərlikdə, müxtəlif yerlərdə çoxlu dostlarımız olub. Onlarla səmimi münasibətlər qurmuşam, can deyib, can eşitmişəm. Ancaq cəbhə dostluğu, səngər dostluğu heç nə ilə əvəz edilə bilməz. Mənim həyatda qardaşım yoxdur. Orada çoxlu qardaşlar qazandım. Goranboydan Əsgərov Zaman, Ağcabədidən İbrahimov Fürudin, Biləsuvardan qrup kamandirinin müavini, baş leytenant Pərvin Rəhimli, Yevlaxdan leytenant Əliyev Elsevər, Bayramov Ləmyar və başqaları bir-birimizi qardaşdan artıq istəyirdik. Ayrılanda hər birimizin gözləri dolmuşdu. Sanki ən əziz adımımızdan ayrılmışıq. Səngər dostluğu yaman olurmuş. İndi də onlarla davamlı zəngləşirik. Şuşa döyüşləri doğurdan da yaddan çıxmazdır. Mən özümü onda tanıdım və nəyə qadir olduğumu anladım. Füzulinin, Qubadlının, Xocavənd kəndlərinin azad olunması ilə bağlı döyüşlərdə bütün qrupumuz əsil igidliklər göstərdi. Düşmənə qan uddurduq.

Komandirlərimizin tarşırıqlarını vicdanla, şərəflə yerinə yetirirdik. Zaqataladan olan qrupp komandirimiz, baş leytenant Dövlətbəy Yunusov bizim böyük qardaşımız idi. Ümumiyyətlə qrupda olan 16 nəfərin hər biri bir-birinə qardaş idi. Mən bu cür qardaşlığı həyatımda birinci dəfə görürdüm. Şuşa döyüşləri çətin və şərəfli oldu. Dağı necə dırmaşırdıq, necə bıçaqla, limonkalarla döyüşürdük, iki göz lazım idi ki, bizə baxıb həsəd aparsın. Şuşa döyüşlərində həmkəndlim Xəlilov Murad Vəli oğlu snayper gülləsinə tuş gəldi şəhid oldu. Yaralı və yaxud şəhid olsun özümüzlə daşıyırdıq. Başqa cür ola bilməzdi. Şuşa döyüşləri müharibənin qələbə ilə başa çatmasına dair siqnal oldu. Zəfər bayramı nə yaxşı ki, Şuşanın azad olunma günü qeyd edilir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə Şuşanın işğaldan azad edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə, Xəlilov Murad Vəli oğlu (ölümündən sonra) və Əlisoy Cavanşir Məhəmmədəli oğlu "Şuşanın azad olunması" mudalı ilə təltif olundular.

Qeyd edim ki, kənddə hər kəs Əlisoy Cavanşir Məhəmmədəli oğlunun itkin və ya şəhid olduğunu düşünürdü. Nəhayət noyabrın 10-da onun ailəsinə telefon bağlantısı bütün kəndi sevincə qərq etdi. Yaxın vaxtlarda Əlisoy Cavanşir Məhəmmədəli oğlunun toyu olacaq, bununlda qələbə sevincimizə yeni cevinc qatılacaq.

# "Nar" onlayn təhsil alanlar üçün yeni internet paketi təqdim edib

"Nar" pandemiya dövründə onlayn formatda təhsil alan şagird və tələbələrin, eləcə də müəllimlərin dərslərə istənilən məkandan rahatlıqla qoşula bilməsi üçün "TƏHSİL+" internet paketini təqdim edib. Yeni internet paketi ilə "Microsoft Teams", həmçinin də "Zoom" tətbiqlərindən heç bir sürət limiti olmadan, istər tətbiq, istərsə də veb-brauzer üzərindən istifadə etmək mümkündür.




Bu paket çərçivəsində abunəçilərə hər iki tətbiqdən istifadə üçün sürət limiti olmayan 50GB təqdim olunur. Qeyd edək ki, "TƏHSİL+" internet paketinin üstünlüklərindən biri də "hotspot" funksiyası vasitəsilə internetin paylaşıla bilən olmasıdır. Paketin qiyməti 10 AZN təşkil edir. Sərfəli internet paketindən yararlanmaq üçün abunəçilər *777#21# kodunu yığa və ya "777" nömrəsinə "T+" açar sözünü göndərərək paketi aktivləşdirə bilərlər.

"Nar" uzunmüddətli KSM strategiyası çərçivəsində ölkədə təhsilin inkişafını dəstəkləyən bir çox sosial layihələr həyata keçirir. Təqdim olunan yeni internet paketi də ictimai izolyasiya dövründə təhsil prosesində iştirak edən şagird və tələbələrə, eləcə də müəllimlərə dəstək məqsədilə yaradılıb. "TƏHSİL+" internet paketi haqqında daha ətraflı məlumat üçün buradan ala bilərsiniz.



İLHAM

# İnsan-maşın ixtira olunur

***Atalar misalı var, deyir, "qulaq gündə bir söz eşitməsə, kar olar". Günümüzün reallığında məlum olan məsələ ondan ibarətdir ki, qulaqlarımız gündə bir deyil, bir neçə əndrabadi, həm də maraqlaı söz-söhbətlər eşidir.***

Deyək ki, marşurut avtobusunda sıxlığın olmasına baxmayaraq sərnişinlər dillərini də dinc qoymurlar. Yerlərini çətinliklə də olsa rahatlayanlar, başlayırlar danışmağa. İlk öncə giriş olaraq Qarabağda müzəffər əsgərlərimizin rəşadətli qələbəsindən, ermənilərin məhv edilməsindən danışıb, "nə oldi Paşinyan" deyib, söhbətin bu hissəsini bitirib, keçirlər koronavirus bəlasına. Kimisi bu virusun ABŞ-ın və Qərbin yaratdığı bioloji silah olduğunu bildirirsə, başqa birisi də Çinin artmaqda olan əhalisinin kökünü kəsmək üçün hazırladığı dərman olduğunu deyir. Arada-bir ABŞ-ın artıq keçmiş prezidenti olan Donald Trampın sərsəm, anormal hərəkətlərindən söz açıb, Baydenin erməniрərəst valədüznah birisi olduğunu söyləyirlər.

Bəzən çənələr o dərəcə də qızışır ki, sərnişin düşməli olduğu dyanacağı unudub, başqa daynacağa qədər getməli olur. Deyinə-deyinə avtobusu tərk edən kişi və ya qadın, hirsini-hikkəsini sürücünün üzərinə atmağa çalışır. Görünür sürücü çox belə hadisələrin şahidi olduğundan, əsəbi sərnişinin sözlərinə əhəmiyyət verməyir, sadəcə başını bulayıb, gülümsəyir və avtobusun qapılarını bağlayıb yoluna davam edir.

Söz yox ki, müasir dünyamız yeni texnologiyalarla zəngindir. Texnologiyadan istifadə bütün sahələrdə özünü göstərir və birbaşa olaraq cəmiyyətlərin iqtisadi-hərbi gücünə təsir edir. Bəzən həyatımızda yeni texnalogiyalarla bağlı maraqlı və təəccüblü söhbətlərdə eşidirik. O gün işdən çıxıb, 1 manatlıq taksilərdən biri ilə, evə gedirdim. Həmişəki kimi, taksi sürücüsü dili boğaza qoymadan koronovirusdan və vaksinləşmədən bir xeyli danışdı. Bu anda arxa oturacaqda əyləşən, bir cavan oğlan "hə, bu gün həkimlər bizim iş yerimizə gəlib, vaksin vururdular, amma mən vurdurmadım" deyincə, sürücünün "niyə" sualına, həmin cavan oğlan, "baxdım ki, şpirisin iynəsi çox qalındır, ona görə", dedi. Bu dəfə sürücü özünü kifayət qədər məlumatlı şəxs kimi göstərməyə çalışdı, "sənin dərinin altına "cpeys" yerləşdirmək istəyiblər, gərək razı olaydın". Bu dəfə mən "yeni dərialtına "cpeys"də yerəşdirilər, Azərbaycanda belə hallar varmı" sualdolu nəzərlərlə sürcünün özündən razı sifətinə baxdım. "Bəli, Azərbaycanda varlı, imkanlı şəxslər, xüsusilə də, vəzifəli insanlar sağ biləklərinə "cpeyis" yerləşdirilər". Mənim ona təccüblə baxdığımı görüb, "Pullu-paralı insanlar alış-veriş edərkən, biləklərini aparata yaxınlaşdırmaqla, ödənişi edirlər. Xaricə pul daşınmasını da, "cpeyis" vasitəsi ilə hayata keçirilər". Sürücü həm də, inamla bildirdi ki, "cpeyis"i biləyə yerləşdirmək 2-3 min manat rüşvət verməlisən. Maraqlı məqam ondan ibarət idi ki, arxa oturacaqda əyləşən yol yolaşımız cavan oğlan da "düz deyir, düz deyir" söyləməklə sürücünün dediklərinə haqq qazandırdı.

Taksini tərk etdikdən sonra bir xeyli baş sındırıb, fikirləşməli oldum. Açıq-aşkar, taksi sürücüsü fikirləri ilə, məni şübhələrə saldı. Doğurdanmı, maraqlı qüvvələr və ya hakimiyyətlər yeni texnologiyalar tətbiq edirlər? Bəlkə də, insanlar üzərində nəzarəti həyata keçirmək üçün müxtəlif texnoloji vasitələrdən bəhrələnməyə çalışırlar. Gizli labarotirayalarda insanları virusa yoluxdurmaq üçün bioloji silah hazırlayanlar, elə eyni ssenari əsasında insanları nəzarət altına almaq üçün biləklərinin dərsinin altına "cpeys"də yerləşdirməyi planlaşdırıblar. Əgər belədirsə, vay insanların halına. O mənada ki, insanların hara gedib, gəldikləri, nə işlərlə məşğul olduqları, nə danışdıqalarına nəzarət edəcəklər, təbii ki, ipə-sapa yatmayanlar, mərkəzi idarətmədə oturanlar tərəfindən sıradan çıxarılacaqlar.

Bu yaxınlarda saytlardan birindən oxudum ki, Elton Musk adlı bir ixtiraçı insan-maşın ixtira edəcək. Bu insanlara süni intellektlə daha effektiv qarşılıqlı əlaqə yaratmağa kömək edəcək. Amma bir məsələ var ki, taksi sürücüsünün dediyindən fərqli olaraq "cpeyis" biləyin dəri altına deyil, sağ qulağın baş dərisinin altına yerləşdiriləck. Bir sözlə, yeni texnalogiyalar özü ilə problemlər gətirəcək. Amma təsəllimiz də, var. Yəni işimizi düzgün qura bilsək, insanları nəzarət məsələsindən bizlərdə bəhrələnə bilərik. Xüsilə də, müəyyən yol tapıb, mənfur ermənləri məhv edə və bununlada həm regionu, həm də dünyanı ermənizm bəlasından tamamilə xilas edərik.

# Əli Kərimli mənfurluğu: şəhid faktorunu siyasi alətə çevirən vicdansızlıq!

*Yaxud, oğlunu əli azərbaycanlıların qanına batmış Bako Saakyanın oğlu ilə sövdələşmək üçün ABŞ-a göndərən xain*

***AXCP sədri Əli Kərimlinin zaman-zaman şəhidlərimiz üzərindən öz mənfur, xəyanətkar əməllərini həyata keçirmək cəhdləri barədə yüzlərlə faktlar var. Bu gün kimsə unutmayıb ki, məhz Əli Kərimli Yanvar və Xocalı şəhidlərimizin anım mərasimlərində ümumxalq hüznünü öz kirli siyasi oyunbazlıq alətinə çevirməyə çalışıb. Bütün bu kimi danılmazlıqlar, eyni zamanda sübut edir ki, fəaliyyətini "milli müxalifətçilik" saxtakarlığı üzərində quraraq, əslində, düşmən dəyirmanına su tökməklə məşğul olan bu cəbhəbaşı özü ilə birlikdə aldadaraq ətrafına topladığı gənclərə də öz acı zəhərini ilhaq edir. Söz yox ki, bu cür ürəkbulandırıcı addımlar həm də Azərbaycan dövlətinin və xalqının düşmən üzərində qazandığı qələbənin üzərinə kölgə salmağa hesablanmış məsələdir və belə manipulyasiyalardan ilk növbədə düşmənlər - yəni ermənilər bizim əleyhimizə istifadə etməyə çalışırlar.***






### Qoçu Tofiq Yaqublu... Əxlaqsız Fatimə Mövlanlı...

Üstəlik, şəhidlərimiz, onların ailələri üzərindən ləyaqətsiz və şərəfsiz oyunlar oynayan daha bir şəxsin - Tofiq Yaqublunun da Əli Kərimlinin "zurnasına" züy tutması artıq belə bir qənaətə gəlməyə zəmin yaradır ki, bu ünsürlərin əlində olsa, elə günü bu gün keçərlər düşmən cinahına və murdar gərdanlarına düşmən çörəyi doldurmaq planlarını sevə-sevə icra edərlər.

Bu arada, AXCP sədrinin "katibə-referenti", "operatoru", öz anasını döydüyünə görə dəfələrlə polis orqanlarına düşən, pozğun həyat yaşamağı üstün tutan, bir əlində araq badəsi, damağında siqaret tutaraq gecə barlarında göbək atan, heç bir milli-mənəvi dəyərlərə hörmət göstərməyən Fatimə Mövlanlının da bu məsələdə yer alması, yəni şəhidlər üzərindəki manipulyasiyalarda iştirakı



onun şəhid ailələrinin problemlərinə "canıyanmaq" artistliyini ortaya qoymaqdadır.

### Demək ki, şəhid ailələrinin affekt halından, hiss və həyəcanından sui-istifadə məqsədləri, planları var...

Bu arada YAP-ın Gənclər Birliyinin sosial media qrupunun rəhbəri Ramil Vəlibəyovun qeydlərini nəzərə çatdırmaq yerinə düşərdi. "Sual edəcəksiniz ki, Əli Kərimli və Tofiq Yaqublunun bu işə nə dəxli? O zaman ortaya sual çıxır ki, problemini, dərdini dövlət qurumuna demək üçün gələn şəhid ailələrinin yanında Əli Kərimlinin özəl operatoru Fatimə Mövlanlı nə gəzir? Təsadüfün bu qədəridirmi ki, hər dəfəsində Fatimə Mövlanlı hadisə yerində peyda olur? Əgər belədirsə, nə üçün başqa şikayətçilərin yanında olmur, bu Fatimə? Demək ki, şəhid ailələrinin affekt halından, hiss və həyəcanından sui-istifadə məqsədləri, planları var...", deyə yazan media qrupunun rəhbəri AXCP sədrinə xitabən qeyd edir: "Əli Kərimli, şəhidlər və onların ailələri siyasi alət yox, cəmiyyətimizin baş tacıdır. Oğlun Türkelin, qızın Selcanın ABŞ-da, Britaniyada bahalı həyatını təmin etmək üçün şəhid ailələrini aldatmaq, onlara şəhid qəbrini dağıtdırmaq, bütün bunları da sosial şəbəkələrdə yaymaq, sadəcə, mənəviyyatsızlıqdır. Oğlunu hərbi xidmətdən yayındırmağın bəs deyilmiş kimi, gənclər Qarabağ üçün ön və arxa cəbhədə vuruşarkən, sənin oğlun ABŞ-da eyş-işrət məclislərində kef edirdi. Ən azından buna görə xəcalət çəkirsənmi?"



Əgər sənin şəhid ailələrinə və qazilərə hörmətin olsaydı, sentyabrın 27-dən bu günə qədər bircə dəfə də olsun bir şəhid ailəsinin, yaxud qazinin qapısını döyərdin, köməklik edərdin

Bəli, bu kimi dəlillər, sübutlar və haqlı iradlar çoxdur, hətta kifayət qədər çoxdur və onların hər birinin arxasında sözün əsl mənasında Əli Kərimlinin və ətrafının iyrənc siyasi oyunbazlıq maraqları dayanır. Və bu həmin Əli Kərimlidir ki, onun üz-gözünü bu qədər "cırması" heç də Azərbaycan xalqına və dövlətinə qarşı sərgilədiyi xəyanətlərini ört-basdır etmir. Əksinə, daha çox ifşa edir. Halbuki, şəhid ailələrinin problemlərini dövlət həll edəcək, edir də!

Bu barədə də qeyd olunur: "Məlum ərazidə Şəhidlər Xiyabanı kompleksi salınacaq, ora gənc nəsil üçün ziyarətgaha çevriləcək. Amma xəyanət ləkəsi yenə də sənin kimilərin üzərində olacaq. Əgər sənin şəhid ailələrinə və qazilərə hörmətin olsaydı, sentyabrın 27-dən bu günə qədər bircə dəfə də olsun bir şəhid ailəsinin, yaxud qazinin qapısını döyərdin, köməklik edərdin. Xeyr, heç zaman etməmisən və bundan sonra da etməzsən.

Çünki sən:

- Qarabağın işğalına şərait yaratmış hakimiyyətin başında duranlardan olmusan,
- Qondarma soyqırımına görə ermənilərdən üzr istəyənlərlə eyni masanı paylaşırsan,
- Oğlunu əli azərbaycanlıların qanına batmış Bako Saakyanın oğlu ilə sövdələşmək üçün ABŞ-a göndərirsən,
- Şəhidlər Xiyabanının yerində restoran tikmək istəyən Rüstəm İbrahimbəyov kimisinin prezident olmasına çalışmısan,
- Şəhidlərimiz və qazilərimiz sayəsində qazanılmış qələbəni "mühüm olmayan" adlandırmısan,
- 44 gün ərzində şəhidlərimizin şəklini paylaşmaqla erməni kəşfiyyatına məlumat ötürmüsən və s. xəyanət siyahısını çox uzatmağa dəyməz...



Bu gün Azərbaycan xalqına və dövlətinə azad etdiyimiz torpaqları cənnətə çevirmək üçün birlik lazımdır. Lakin AXCP və Milli Şura dövlətimizin təməlinə külüng vururlar. Ümid edirəm ki, müəyyən səbəblərdən narazılığı olan həmin şəhid ailələri də onların hiss və həyəcanından sui-istifadə edənlərin əsl simasını görəcək, onlara dövlətə zərbə vurmaq üçün fürsət verməyəcəklər. Onlar da fərqinə varacaqlar ki, övladları Əli Kərimli kimilərin siyasi oyunlarına görə deyil, Vətən naminə canından keçib, şəhid olublar...

Allah şəhidlərimizə rəhmət eləsin!"

Görəsən, cəbhəbaşı Əli Kərimli, qoçu Tofiq Yaqublu və əxlaqsız Fatimə Mövlanlı gecələr yatarkən hansı çirkablara bulaşdıqları barədə özlərinə hesabat verib, ən azından daxillərində vicdan əzabı çəkirlərmi? Əslа, inandırıcı deyil, ona görə inandırıcı deyil ki, belələrində ümumiyyətlə vicdan, mənəviyyat və ləyaqət hissləri olmayıb, yoxdur və belə görünür ki, heç vaxt olmayacaq da!

**Rövşən RƏSULOV**

# Min bir dərdin dərmanı - çay niyə zay olub?



### Azərbaycanda çayçılığın inkişafı üçün böyük potensial olduğu halda, bu sahəni niyə dirçəldə bilmirik?

Hazırda beynəlxalq bazarlarda 1 kiloqram quru çay yarpağının qiyməti 2,7 ABŞ dolları səviyyəsindədir. Hazırda Çin, Hindistan, Keniya və Şri-Lanka dünyanın ən böyük çay istehsal edən ölkələridir. Çay istehsalının həcminə görə dünya bazarında ən böyük istehsalçılardan olan Çin hər il xaricə 300-350 min ton, istehsal həcminə görə 2-ci yerdə qərarlaşmış Hindistan 200 min ton, Keniya isə 370-380 min ton çay ixrac edir. Bu ölkələr, çay istehsalı və ixracından külli miqdarda gəlir əldə edirlər. Azərbaycanın da bunun üçün müvafiq potensialı var, lakin biz hələ ki, bu potensialdan lazımınca istifadə edə bilmirik. Bunun səbəbləri nədədir?

### Azərbaycanda çayçılığın tarixi və nailiyyətləri

Azərbaycanın aqrar sektoru üçün çayçılıq çox əhəmiyyətli sahələrdəndir. Bizim aqrar sektorun vaxtilə böyük şöhrət qazanmış, yaxşı gəlir gətirmiş, böyük potensialı olan əsas sahələri arasında çayçılıq da var. Azərbaycanda çay bitkisinin elmi əsaslarla becərilməsinə 1929-cu ildən, sənaye miqyaslı plantasiyaların salınmasına isə 1932-ci ildən başlanılıb. Bundan sonra, çayçılıq sahəsinin inkişafı başladı, Azərbaycan çayı SSRİ miqyasında və bir çox xarici ölkələrdə də tanınmağa başladı.

Bu sahənin inkişafı 1970-1980-ci illərdə daha da sürətləndi, həmin dövrdən etibarən çay plantasiyalarının sahəsi genişləndirilərək 13,4 min hektara, yaşıl çay yarpağı istehsalı 34,5 min tona çatdırıldı. Eyni zamanda, ölkədə çay yarpağı emal edən 14 müəssisənin və 2 çayçəkici fabrikin tikilməsi ildə 45 min ton çay yarpağının emalına imkan yaratmış, ölkə əhalisinin quru çaya olan ehtiyacının 65-70 faizinin yerli istehsal hesabına ödənilməsini təmin etmişdi, üstəlik İttifaq respublikalarına və xarici ölkələrə idxal da edilirdi. Çayçılıqda biz keçmiş SSRİ üzrə Gürcüstandan sonra 2-ci yeri tuturduq və bu sahədən respublikamız yüksək gəlir əldə edirdi.

Sovet dövründə respublikamızda aparılan elmi araşdırmalar nəticəsində müəyyən edilmişdi ki, əsas hissəsi Lənkəran iqtisadi rayonunun payına düşməklə, ölkədə 21 min hektara yaxın ərazinin təbii iqlim şəraiti, torpaqlarının mövcud vəziyyəti Azərbaycan ərazisində çay bitkisinin becərilməsinə imkan verir.

Getdikcə çay plantasiyalarının sahəsi artır, məhsuldarlıq çoxalır, respublikamızın tələbatını ödəmək və xaricə ixrac etmək üçün imkanlar yaranırdı. Lakin Sovet İttifaqının dağılması ilə bu sahədə də tənəzzül başladı. 90-cı illərdən etibarən ölkədə çay sahələri və istehsalı tədricən azalmağa başladı və 2010-cu ildə çay plantasiyalarının sahəsi Sovet dövrü ilə müqayisədə 27 dəfə azalaraq 587 hektara, məhsul istehsalı isə 70 dəfəyə yaxın azalaraq 545 tona düşdü. Çayçılıq artıq tənəzzül dövrünün kulminasiyasına çatmış, ölkəmiz çayı ancaq xaricdən idxal etməyə məcbur olmuşdu. Artıq ölkənin tələbatının demək olar ki, 99 faizi idxal hesabına ödənilirdi. Təəssüf ki, torpaqların bölünməsindən sonra subtropik zonalarda yaşayanlar çay əkin sahələrini tərəvəz sahələri ilə əvəzlədilər, çayçılığa maraq tamam itdi, dövlət isə bu gəlirli sahənin bərpasına inkişafına çox gec fikir verdi.

### Çayçılığın bərpasına necə başlanıldı?

Bu sahədə vəziyyəti dəyişmək üçün 17 dekabr 2002-ci ildə Azərbaycan Respublikasında çayçılığın təşkilinin, çay istehsalının tənzimlənməsinin və çay məhsullarının keyfiyyətinin təmin edilməsinin hüquqi əsaslarını müəyyən edən "Çayçılıq haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edildi.

2016-cı ildən başlayaraq çayçılığın inkişafına məhsul istehsalçılarının marağının artırılması istiqamətində görülən tədbirlər sayəsində 2017-ci ildə çay plantasiyalarının sahəsi 2010-cu illə müqayisədə 2 dəfə artaraq 1114 hektara, məhsul istehsalı isə 42 faiz artaraq 775 tona çatdırıldı. 2019-cu ildə Azərbaycan təxminən 8 milyon ABŞ dolları dəyərində 1200 tona yaxın çay ixrac edib, eyni zamanda, 40 mln. dollar dəyərində 11 min tona yaxın çay idxal edib. İdxal ixracı 9 dəfəyə yaxın üstələyib.

12 fevral 2018-ci ildə çayçılığın inkişaf etdirilməsi, çay məhsullarına tələbatın yerli istehsal hesabına təmin olunması, çayçılığın ixrac potensialının artırılması, kənd əhalisinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi ilə "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edildi. Dövlət Proqramı Azərbaycan Respublikasında çayçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsinə, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə, çay istehsalına marağın artırılmasına yönəldilmişdir.

Son illərdə bu sektorda müəyyən irəliləyişlərin əldə olunmasına baxmayaraq bu sahə hələ də keçmiş şöhrətini qaytarmaqdan uzaqdır. Lakin bunun üçün potensial var və bu potensialdan istifadə etməliyik.

Qeyd edək ki, 2020-ci ildə yaşıl çay yarpağı istehsalı 1000 ton civarında olub. 2019-cu ildə isə yaşıl çay yarpağı istehsalı 930 ton olub. Göründüyü kimi, artım var, lakin çox zəifdir. Halbuki, potensial dəfələrlə çoxdur və qısa müddətdə bu sahədə vəziyyəti köklü surətdə dəyişmək olar.

### Satışda olan çayların keyfiyyəti niyə aşağıdır?

Getdikcə Azərbaycan bazarında yerli çayın çəkisi artır. Lakin bu gün satışda olan çaylara gəldikdə, deməliyik ki, onların çoxu keyfiyyəsiz, kimyəvi maddələrlə zəngin, təbiiliyi və özünəməxsus dadı qalmamış çaylardır. Yəni, kəmiyyət cəhətdən artım əldə olunsa da, keyfiyyət cəhətdən bunu demək olmaz.

Son dövrlərdə insanlar çayın keyfiyyətli olmamasından və əvvəlki dadı verməməsindən şikayətlənir. İstehlakçıların fikrincə, çay normalda 10-15 dəqiqəyə dəm almalı olduğu halda, indiki çaylar 1-2 dəqiqəyə dəm alır və stəkanda rəng buraxır. Bu isə çoxlarında çayın kimyəvi emaldan keçdiyinə şübhə yaradır. Bu məsələdə haqsız da deyillər. Çünki təbii çay heç vaxt 1 dəqiqəyə dəm ala bilməz. Halbuki, paket çayı qaynar stakana atdıqdan 1 dəqiqə keçməmiş qapqara dəm alır. Bu, təbii cəhətdən mümkün deyil, dünyada belə çay heç vaxt olmayıb.

Aydındır ki, çaya emal zamanı kimyəvi maddələr vurulur. Çay stəkanda və ya dəm çaydanında 5-6 saat qalandan sonra elə vəziyyətə düşür ki, adamın ürəyi bulanır. Kimyəvi boyanı stəkandan yuyub təmizləmək çətin olur. Belə rəngləyici əlavələrlə hazırlanmış çaylar insan orqanizminə olduqca ziyanlıdır. Xüsusən də, "Azərsun"un qiyməti ucuz olan çayları.

Qida Təhlükəsizliyi Agentliyi və digər aidiyyatı orqanlar bu çayların keyfiyyətinə nəzarət etmir. Nəticədə, insanlarımız həm pul verirlər, həm də xəstəlik qazanırlar. Agentlik öz işini yerinə yetirməli və buna ciddi nəzarət etməlidir.

### Azərbaycan çayının keçmiş şöhrətini necə qaytarmaq olar?

Azərbaycanda bu sahəyə daha çox diqqət ayrılsa, həm iş yerləri artar, həm ciddi rəqabət mühiti formalaşar. Bu sektorda rəqabət məsələsində ciddi problemlər var. Belə ki, "Azərsun" digər qida məhsullarında olduğu kimi, bu sahədə də monopoliya yaratmağa cəhd edir. Nəticədə, istədiyi vaxt məhsullarının qiymətini bahalaşdırır, keyfiyyətini isə aşağı salır. Bazarda ciddi rəqabət olmadığından və alternativlər az olduğu üçün istehlakçılar məcbur olur bu məhsulları almağa.

"Azərsun" bir neçə çay fabriki açıb, çayı əsasən xaricdən idxal edir, burda sadəcə paketləyir. Bu çaylardan müəyyən hissəsi, düzünü desək, keyfiyyətli olan hissəsi reeksport olunur, ölkə bazarına isə keyfiyyətsiz, ucuz məhsullar ötürülür. Bir çoxumuz xarici ölkələrdən "Azərsun"-un çaylarını alıb içmişik, onlar həm dadı, həm ətri, həm dəmləmə vaxtı cəhətdən burada satılan çaylarından tamam fərqlidir. Belə çıxır ki, keyfiyyətli məhsul xaricə, zay məhsul vətəndaşlarımıza satılır. Bu necə yanaşmadır?

Bu sektorda xüsusən, kiçik və orta təsərrüfatlara dəstək verilməlidir. Güzəştli və uzunmüddətli kreditlər ayrılmalıdır. Çünki çay bitkisinin məhsul verməsi üçün 7-8 il vaxt tələb olunur. Lakin məhsula düşəndən sonra çay kolları 50-100 il məhsul verir.

Mütəxəssislərin rəyinə görə, ölkəmizdə 20 min hektardan çox ərazi çay becərilməsinə imkan verir. Bu, az olmasa da, çox da deyil. Ona görə də, həmin torpaqlarda başqa bitkilərin əkilməsinə yol verilməməlidir. Çayçılıq təkcə əkin sahəsi demək deyil, bu, həm də sənaye sahəsidir. Plantasiyalar artsa, emal fabrikləri də artacaq və aqrar-sənaye zənciri yaranacaq.

Çayçılıq üçün gözəl imkanlara malik olan Azərbaycanın xaricdən çay almaq üçün ildə 50 milyon dollar xərcləməsi arzuolunan deyil. Əgər çayçılığa dövlət səviyyəsində diqqət artırılsa, bu sahədə monopoliya cəhdləri aradan qaldırılsa, tezliklə bu sektorda çox ciddi inkişaf əldə olunar, nəinki özümüzü tam təmin edə bilərik, xaricə də baha qiymətə keyfiyyətli məhsul ixrac edə bilərik. Beləliklə, işsizlik probleminin həllindən tutmuş, dövlət büdcəsinin artmasına qədər çox sahədə yaxşı nəticə əldə olunar.

Artıq bu sahədə ciddi işlərə başlanır, ümid edək ki, qısa müddətdə çayçılıq sektorunun keçmiş nüfuzunu bərpa edə biləcəyik və qeyri-neft sektorunda ölkəmizin əsas gəlir mənbələrindən birinə çevriləcək.

*Elçin Bayramlı*




*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanı.*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

28 yanvar

# İbrahimoviçlə Lukaku kəllə-kəlləyə!

**Futbol üzrə İtaliya kubokunun 1/4 finalında ötən gecə keçirilən "İnter" - "Milan" matçında (2:1) insident yaşanıb. Qol.az xəbər verir ki, ilk hissəsin sonlarında "Milan"ın müdafiəçisi Alessio Romanyoli Romelu Lukakuya qarşı kobud oynayıb. Lukaku ilə Romanyoli arasındakı mübahisəyə İbrahimoviç də qoşulub.**



**İsveçli hücumçu rəqibini təhqir edib. Belçikalı forvard da Zlatana söyüb. Baş hakim hər iki oyunçuya sarı vərəqə göstərib. 58-ci dəqiqədə isə İbrahimoviç kobud oyuna görə ikinci sarı vərəqəni alaraq, meydandan qovulub. Xatırladaq ki, "İnter" "Milan"ı mübarizədən kənarlaşdıraraq yarımfinala yüksəlib.**

# "Böyük dəbilqə" turnirində iştirak edəcək cüdo millimizin heyətində dəyişiklik edilib




Fevralın 18-20-də Təl-Əvivdə keçiriləcək cüdo üzrə "Böyük dəbilqə" turnirində iştirak edəcək Azərbaycanın komandasının heyətində dəyişiklik edilib.

Belə ki, əvvəlcə yarışda iştirakı nəzərdə tutulan Rüstəm Orucov (73 kq) və İrina Kindzerska (78 kiloqramdan yuxarı) heyətdən çıxarılıb. Bununla belə, yarışa qatılacaq komandamızın heyətində kişilər arasında Kəramət Hüseynov, Davud Məmmədsoy (60 kq), Orxan Səfərov, Nicat Şıxəlizadə (66 kq), Telman Vəliyev (73 kq), Zelim Tckayev, Hidayət Heydərov (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (100 kq) Uşangi Kokauri, Camal Feyziyev (100 kiloqramdan yuxarı) mübarizə aparacaqlar. Qadınların yarışında isə Aişə Qurbanlı, Leyla Əliyeva (48 kq), Gültac Məmmədəliyeva (52 kq), İrina Kindzerska (78 kiloqramdan yuxarı) güclərini sınayacaqlar. Yarışda indiyədək 51 ölkədən 242 cüdoçu iştirakını təsdiqləyib.

## Yasamalda saxlanılmış şəxsdən tapança və marixuana götürülüb



Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları narkotik vasitələrin satışı və qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı əməliyyatları davam etdirirlər. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş İdarənin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində paytaxt sakini V.Məhərrəmov Yasamal rayonu ərazisində saxlanılıb. Şəxsi axtarış zamanı ondan "TT-17" markalı pnevmatik tapança aşkarlanıb.

Davam etdirilən tədbirlər nəticəsində onun yaşadığı evə baxış zamanı oradan 249 qrama yaxın tiryək, 88 qramdan artıq marixuana, 96 ədəd metadon, 456 ədəd trapin və 1 ədəd elektron tərəzi götürülüb. Faktla əlaqədar təhqiqat davam etdirilir.

# "Fənərbaxça" Məsut Özili ictimaiyyətə təqdim edib



İstanbulun "Fənərbaxça" futbol klubu yeni transferi Məsut Özili ictimaiyyətə təqdim edib. Belə ki, 32 yaşlı yarımmüdafiəçi dünən media önünə çıxıb. Təqdimat mərasiminə klubun prezidenti Ali Koç, Özilin həyat yoldaşı Əminə Gülşə və qızı da qatılıb. Türk əsilli almaniyalı futbolçu tədbirdə 3,5 illik müqaviləyə qol çəkib. Qeyd edək ki, son olaraq "Arsenal"da çıxış edən Məsut Özilin "Fənərbaxça"da illik maaşı 5 milyon avrodur.

# Stresi aradan qaldıran 5 qida



Stres keçirənlər çox vaxt şokolad və xəmir yeməkləri kimi zərərli qəlyanaltılara meyilli olurlar. Bu, heç də ən yaxşı seçim deyil. Bədənin xüsusilə stressli vaxtlarda düzgün işləməsi üçün zəruri qidalara ehtiyacı var. Elə "MedicForum"da dərc edilən maraqlı yazıda faydalı stress əleyhinə məhsullardan bəhs edir.

Yulaf. Yulaf toxumu bir çox B1 və B3 vitamini ehtiva edir ki, bu da enerji metabolizminin və sinir sisteminin normal fəaliyyətini dəstəkləyir. Yulafda olan triptofan amin turşusu xoşbəxtlik hormonu kimi tanınan serotoninin meydana gəlməsinə səbəb olur. Məsləhət: bir gün əvvəl, axşam vaxtı qozlu-fındıqlı və meyvəli sıyıq hazırlayın.

Qoz-fındıq. Hər kəsin ciblərində və ya masanın yeşiyində qoz-fındıq olmalıdır, çünki onlar beyin üçün mükəmməl bir qidadır! Fıstıq və ya qoz, makadamiya və ya badam olsun - bütün növlərində B qrupu vitaminləri, həmçinin yaddaşı dəstəkləyən kalium və dəmir var.

Qoz-fındıq stresdən qoruyan bir çox maqnezium ehtiva edir. O, stresə səbəb olan sinirlər üzrə oyanmanı azaldır və əsəb sistemini sakitləşdirir.

Banan. Stres keçirərkən tez-tez banan ilə qəlyanaltı edirsiniz? O zaman hər şeyi doğru edirsiniz. Cənnət meyvəsi yalnız doyurucu deyil, həm də sinirlərə (müsbət şəkildə) təsir edir. B, maqnezium və kalium qrupunun vitaminləri burada kömək edir. Kalium, məsələn, əzələ və sinir stimullarının ötürülməsi üçün vacibdir və qan təzyiqini tənzimləyir.

Tünd şokolad. Şokolad stresdən kömək edirmi? Bəli, lakin, yalnız tünd variantı, yəni yüksək kakao tərkibli olan şokolad. Kakaoda olan triptofan, bizim əhval-ruhiyyəmizi yaxşılaşdıran serotoninin meydana gəlməsini stimullaşdırır. Tünd şokolad stres hormonlarını parçalamağa kömək edən müəyyən antioksidantları ehtiva edir.

Qızıl balıq. Yağlı balıq qiymətli protein və omega-3 yağ turşuları ilə zəngindir. Sonuncular stres zamanı bədəndə adrenalin hormonunun səviyyəsini azaltmaqla sakitləşdirici təsir göstərirlər. Belə effekt, həmçinin, qızıl balıqda olan vitamin B2-yə aid edilir.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**